www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-23 oktyabr 2016-cı il Şənbə № 234 (6555) Qiyməti 60 qəpik

**Xəbər**

## Kürdəmirdə tükürpədən faciə; 16 yaşlı qız özünü asdı

yazısı səh.2-də

**Gündəm**

### Banklar kredit vermir, lombardlar bayram edir...



Müştəri qismində bir neçə banka müraciət edən əməkdaşımız heyrətamiz faktlar üzə çıxardı

yazısı səh.6-da

### Müxalifət "müharibədən başqa yol qalmayıb" deyir

yazısı səh.4-də

### 2016-da doğrulmayan sülh ümidləri, itirilən aprel şansı

yazısı səh.9-da

### Cinayətkarların qorxulu yuxusu - açılmayan cinayətləri "açacaq" qurğular gəlir

yazısı səh.13-də

### İş adamı "MTN çetesi"nin ona qarşı hücumundan danışdı

yazısı səh.3-də

### Əli İnsanovu ailə üzvlərindən kimlər Bakıda gözləyir?

yazısı səh.4-də

### Sərdar Cəlaloğlu ilə Etibar Əliyev arasında Nobel qovğası

yazısı səh.3-də

### Azərbaycan məmurlarına qarşı sanksiya yenidən gündəmə gəlir?

yazısı səh.5-də

### Dünya bazarlarında neft çatışmazlığı yarana bilər

yazısı səh.7-də

### Bakı İstintaq Təcridxanasında nə baş verir?

yazısı səh.6-da

### Müxalif partiyalar nə iş görür?

yazısı səh.11-də

### Bağlanan banklardakı əmanətlərin qaranlıq taleyi...

yazısı səh.12-də

**Çıxılmaza düşən təcavüzkardan absurd və təhlükəli tövr**

# İRƏVANDAN DİŞSİZ MÜHARİBƏ HƏDƏLƏRİ - BAKIDAN REAL QİSAS VƏDİ

Azərbaycanın ən optimalı sülh təklifini də düşmən davakar ritorika ilə qarşıladı; dünya praktikasında görünməmiş presedent: təcavüzkar təcavüzə məruz qalana beynəlxalq birliyi təzyiq göstərməyə çağırır



yazısı səh.8-də

## Deputatlarla dövlət rəsmisi arasında kredit gərginliyi

Parlamentdə Maliyyə Bazarlarına Nəzarət Palatası "topa tutuldu"; Gülər Əhmədovanın 27 min dolları niyə qaytarılmır?

yazısı səh.7-də




*ABŞ səfiri:*

### "Biz Azərbaycanla daha sıx münasibət istəyirik"

yazısı səh.2-də



*Elxan Şahinoğlu:*

### "Gördülər ki, bu liderlərlə uğur qazanmaq mümkün deyil"

yazısı səh.7-də



*Qəzənfər Paşayev:*

### "Azərbaycan türkmənlərə kömək edə bilməz - ortada hərb məsələsi var"

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016



# “Heç nəyi istisna etmək olmaz, lakin...”

## Dövlət başçısı Avrasiya Birliyinə üzvlük və Türkiyə-Rusiya münasibətlərindən danışıb

**“Azərbaycanın gələcəkdə Avrasiya İqtisadi Birliyinə daxil olmaq imkanlarını istisna etmək olmaz”.**

APA-nın xəbərinə görə, bu sözləri Azərbaycan prezidenti İlham Əliyev "Sputnik" agentliyinə müsahibəsində deyib. O bildirib ki, hələlik ölkə indiki statusda özünü inamlı hiss edir: “Bu mövzuda söhbətlər həm ekspertlər arasında, həm də müxtəlif ölkələrin elitaları arasında çoxdan gedir. Belə deyim: prinsipcə, biz hazırda olduğumuz keyfiyyətdə özümüzü kifayət qədər inamlı hiss edirik. Ona görə də biz hələ baxmalıyıq ki, hansı tendensiyalar müşahidə olunacaq. Əlbəttə, əgər ittifaq cəlbedici olarsa, ora çoxları can atacaq. Yəni heç nəyi istisna etmək olmaz, lakin hazırkı mərhələni mən bu cür xarakterizə edərdim”.

“Bəzi qüvvələr Moskva ilə Ankaranın yaxınlaşmasını narahatlıqla müşahidə ediblər”. Bunu da “Sputnik” ə müsahibəsində Azərbaycan prezidenti deyib. Azərbaycan prezidenti əmin olduğunu bildirib ki, Türkiyə tərəfindən Rusiyanın «Su-24» təyyarəsinin vurulması insidentində kənardan təxribat olub.

“Hər halda, bu baş verəndə, ağlımıza ilk gələn o oldu ki, bunu istisna etmək olmaz. Çünki bu, qətiyyən Türkiyənin marağında deyildi və biz kiminsə bu qeyri-dost addıma qəsdən getdiyini ehtimal edə bilməzdik. Aydındır ki, bu faciəvi hadisədən sonra emosiyalar işə düşdü, bu emosiyalar müəyyən mənada vəziyyəti bürüdü və orada baş verənləri aydınlaşdırmaq çətin idi. Artıq emosiya emosiyanın üstünə gəlirdi, bir söz cavaba səbəb olurdu, nəticədə dayandırılması çətin olan halqa yaranırdı. Bu, artıq dayandırılıb. İndi aydınlaşdırmaq lazımdır. Düşünürəm və əminəm ki, burada təxribatsız ötüşməyib. Çünki Rusiya-Türkiyə münasibətlərinin ruhu və xarakteri qətiyyən Rusiya hərbi aviasiyasının uçuşlarına bu cür reaksiyanı nəzərdə tutmurdu” deyə dövlət başçısı vurğulayıb.

# Mənzillər bahalaşıb

**Bu ilin III rübündə Azərbaycanda II rüblə müqayisədə mənzil bazarında qiymətlər 0,8% artıb. Dövlət Statistika Komitəsinin açıqladığı mənzil bazarında qiymət indekslərinə əsasən, ilkin mənzil bazarında 0,9%, təkrar mənzil bazarında isə 0,8% bahalaşma qeydə alınıb.**

Ötən ilin III rübü ilə müqayisədə isə mənzil bazarında 2,7% ucuzlaşma, o cümlədən ilkin mənzil bazarında 4,0% artım, təkrar mənzil bazarında 2,8% azalma müşahidə olunub.

# “Qışda qaz olacaq”-SOCAR rəhbəri

**“Qışda Azərbaycanın qazla təminatında heç bir problem olmayacaq”. “APA-Economics” xəbər verir ki, bunu SOCAR prezidenti Rövnəq Abdullayev deyib. Azərbaycanda qış rejiminə noyabrın 1-dən keçildiyini xatırladan R. Abdullayev bildirib ki, 15 gün əvvəldən SOCAR idarələrində qışa hazırlıq prosesi müzakirə edilib:**

“Bir neçə günə qış rejiminə keçməyə hazır olacağıq. Keçən ildən anbarlarda qaz ehtiyatı toplanıb. İntensiv yağışlar zamanı qaza artan tələbat müvəqqəti idi. Havalar qəflətən soyuduğu kimi, istiləşə də bilər. Mən müşahidə etmişəm ki, havalar soyuyan kimi insanların qaza tələbatı artır və "mavi yanacaq" vasitəsilə evləri qızdırırlar. Amma hava istiləşəndə insanlar mənzilin qızmasına baxmayaraq qaz sobalarını söndürmür, əksinə, pəncərəni açırlar".

“Qaya Mətbuat Yayımı” MMC!
- **İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Əli İnsanov yeni həbsindən apelyasiya şikayəti verib

**Virtualaz.org saytının xəbərinə görə, sabiq səhiyyə naziri Əli İnsanovun apelyasiya şikayəti icraata verilib. Ə.İnsanovun şikayətinə Bakı Apelyasiya Məhkəməsində hakim Sahibxan Mirzəyevin sədrliyi ilə baxılacaq. Prosesin vaxtı yaxın günlərdə bəlli olacaq.**



Qeyd edək ki, bu il avqustun 24-də Ə.İnsanova Cinayət Məcəlləsinin (CM) üç maddəsi ilə ittiham irəli sürülüb. Sabiq nazir CM-in 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2-ci (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri ilə ittiham olunur. Onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs edilib. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub. 2007-ci ilin aprel ayında Ə.İnsanov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan edilməklə, 11 il müddətinə azadlıqdan məhrum olunub.

## Ayaz Mütəllibov gileyləndi

**“Dövlət müstəqilliyi ilə bağlı təşkil edilən tədbirlərə məni dəvət etmirlər. 4 ildir ki, Bakıdayam, amma bir dəfə də olsun, belə mərasimlərə görə məni axtaran olmayıb. Səbəbini deyə bilmərəm”. Bunu modern.az saytına açıqlamasında eks-prezident Ayaz Mütəllibov deyib. Eks-prezident əlavə edib ki, vaxtilə taleyüklü qərarın qəbul edilməsində tək iştirak etməyib.**

“Dövlət müstəqilliyi ilə bağlı Konstutisiya Aktına deputatların əsas hissəsi öz imzasını qoymuşdu. Biz milllətimizi birliyə çağırırıqsa, niyə narazılıq yaratmalıyıq? Müstəqillik Aktında kimin ki imzası var, onlar dərin hörmətə layiq insanlardır. Müstəqillik məsələsi könüllü idi. Heç kimlə məsləhətləşməmişdik. Oktyabrın 18-də müstəqilliyimizi elan etdiyimiz gün kimsə deyə bilməzdi ki, Sovet İttifaqı məhv olacaq. Heç kəsin də xəbəri yox idi ki, nə vaxtsa 3 müttəfiq respublika bir araya gəlib sənədə qol çəkəcək və SSRİ buraxılacaq. Biz o zaman böyük riskə getdik. Suverenliyin dolğun şəkildə təmin olunmasına nail olduq”.

## Putin bu gün Berlinə gedir

**Rusiya prezidenti Vladimir Putin oktyabrın 19-da “Normandiya dördlüyü” ölkələrinin dövlət başçılarının görüşündə iştirak edəcək.**

Bu barədə “İnterfax” Moskvadakı mənbəyə istinadən xəbər yayıb. Görüş Berlində olacaq. (APA).

Qeyd edək ki, Donbas probleminin həlli üzrə “Normandiya dördlüyü”nün son görüşü ötən il oktyabrın 2-də Parisdə keçirilib. Bu qrupa Rusiya, Almaniya, Fransa və Ukrayna daxildir.



# Dayanmadan yağış qeyr-adi hadisədir?

**Azərbaycanda oktyabr ayında dayanmadan bir neçə gün ərzində yağışların yağması ölkə üçün qeyri-adi haldır. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun İqlim və aqroiqlimşünaslıq şöbəsinin baş elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov APA-ya bildirib ki, belə yağıntıların yağma ehtimalı 10-12 ildən bir ola bilər. Onun sözlərinə görə, fasilələrlə bu miqdarda yağıntı düşə bilər. M.Qasımov vurğulayıb ki, bu günlər ərzində ölkə ərazisinə artıq aylıq normanın xeyli hissəsi yağıb: “Azərbaycan üçün oktyabr ayında yağıntının çoxillik norması 33-35 mm-dir. Ancaq onun 50%-i artıq 4-5 gün ərzində yağıb. Əvvəlki illərdə 5 gün ərzində Bakıda dayanmadan yağışın olması ilə bağlı hər hansı bir qeydiyyat yoxdur. Demək olar ki, bu, çox az-az, nadir hallarda müşahidə olunan haldır”.**

İqlimşünas vurğulayıb ki, havaların qeyri-sabit və yağıntılı keçməsinin səbəbi şimal-qərb hava kütləsinin respublikaya daxil olmasıdır. Bu hava kütləsinin dayanıqlı olduğunu deyən M.Həsənov bildirib ki, tam şimal və ya qərb hava kütləri ayrılıqda olduqda temperatur fərqi və yağıntılar 2-3 gündən artıq olmur: “Şimal-qərb hava kütləri isə dayanıqlıdır və ola bilsin ki, yaxın 2-3 gün ərzində də belə havalar davam etsin”.

# Qış gəlməmiş dəm qazı “gəldi”...

**Hacıqabulda bir ailənin 6 üzvü dəm qazından zəhərlənib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə oktyabrın 18-də səhər saat 5.35 radələrində Hacıqabul şəhəri Ə. Vahid küçəsi 107/a ünvanında qeydə alınıb.**

Ağamalıyevlər ailəsinə məxsus mənzildə qaz cihazından sızan dəm qazı ailənin 6 üzvünü zəhərləyib. 2012-ci il təvəllüdlü Ağamalıyeva Günay, 2002-ci il təvəllüdlü Ağamalıyeva Gülnarə, 1986-cı il təvəllüdlü Ağamalıyeva Turanə, 1958-ci il təvəllüdlü Ağamalıyeva Elmira, 1982-ci il təvəllüdlü Ağamalıyev Emil və 1955-ci il təvəllüdlü Ağamalıyev Məcid dəm qazından zəhərlənmə diaqnozu ilə Hacıqabul Mərkəzi Rayon Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdiriliblər.



## Nazim İbrahimovun təşkil etdiyi tədbir niyə təxirə salındı?

**Bakıda keçirilməsi planlaşdırılan Dünya Azərbaycanlı İş Adamlarının I Forumu təxirə düşüb və daha münasib bir vaxtda keçirilməsi qərara alınıb. Bu barədə APA-ya Diaspora İş üzrə Dövlət Komitəsindən məlumat verilib.**

Bildirilir ki, Dünya Azərbaycanlı İş Adamlarının I Forumunun keçirilməsi ilə bağlı rəsmi məlumatın yayılmasından sonra dünyanın bir çox ölkələrindən Təşkilat Komitəsinə çoxsaylı müraciətlər daxil olub. Müraciətlərdə müxtəlif ölkələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan soydaşlarımız tərəfindən forumun proqramı, müzakirə olunacaq məsələlər, qəbul olunacaq sənədlərlə əlaqədar xeyli sayda ideya və təkliflər irəli sürülüb. Təşkilat Komitəsi daxil olmuş müraciət və təklifləri diqqətlə araşdırıb və tədbirin daha geniş tərkibdə, həmçinin fərqli formatda keçirilməsini məqbul sayıb. Qeyd edilənlərlə əlaqədar, Təşkilat Komitəsi 2016-cı il oktyabr ayının 28-29-da Bakı şəhərində keçirilməsi nəzərdə tutulmuş Dünya Azərbaycanlı İş Adamlarının I Forumunun daha münasib bir vaxtda keçirilməsini məqsədəuyğun hesab edib.Forumun tarixi barədə əlavə məlumat veriləcək.

## 13 saylı həbsxanadakı münaqişə ilə bağlı cinayət işi açılıb

**İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Milli Preventiv Qrupunun (MPQ) üzvləri Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 13 saylı cəzaçəkmə müəssisəsinə (CM), Müalicə Müəssisəsinə və İxtisaslaşmış Müalicə Müəssisəsinə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçiriblər.**

Ombudsman Aparatının mətbuat xidmətindən APA -ya verilən məlumata görə, MPQ-nin həkim üzvünün də iştirak etdiyi araşdırma çərçivəsində konfidensial şəraitdə qəbul edilmiş məhkumlar 13 saylı CM-in yaşayış sahəsində məhkumlar arasında məişət zəmində baş vermiş münaqişə ilə bağlı cərimə təcridxanasına keçirildiklərini, müəssisə əməkdaşları tərəfindən hər hansı fiziki təzyiqə və zorakılığa məruz qalmadıqlarını, cərimə təcridxanasındakı saxlanma şəraiti və rəftarla bağlı şikayətlərinin olmadığını, hər gün həkim müayinəsindən keçirildiklərini, o cümlədən müəssisəyə heç bir əlavə xüsusi dəstənin yeridilmədiyini, bu barədə yayılan məlumatların əsassız olduğunu bildirib, öz ifadələrini müvafiq aktlarla təsdiq ediblər. Faktla əlaqədar prokurorluqda cinayət işinin başlanıldığı məlum olub.

**Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasından 25 il keçdi. Bu tarixi günlərdə “25 ildir müstəqil dövlət olan Azərbaycan bu illərdə nə qazandı, nə itirdi” sualı aktuallıq daşımaya bilməz.**



# 25 illik müstəqilik: nə qazandıq, nə itirdik?

## İstiqlalçı deputatlar “Mübarizə davam etməlidir” deyirlər...

Müstəqilliyimizin əldə olunmasında böyük rolu olan şəxslərdən biri də milli azadlıq hərəkatının liderlərindən olan xalq şairi, **VHP sədri Sabir Rüstəmxanlıdır**. Sabir Rüstəmxanlı bildirdi ki, 25 ildir müstəqil dövlət olaraq yaşamağın özü böyük uğurdur: “Azadlıq, müstəqillik heç bir maddi dəyərlə ölçülən deyil. Müstəqilliyimiz dövründə xalqımızın qazandıqları da, itkiləri də çox olub.

25 ildə çətinliklərimiz də çox oldu - müharibədəki məğlubiyyətlər, iqtisadi problemlər, qaçqın-köçkün problemləri və sair. Bütün ağır faciələrinə baxmayaraq Azərbaycan dünya dövlətləri sırasında yer alıb və bu, xalq üçün başucalığıdır, bunu dəyərləndirmək lazımdır. Bunun üçün əlbəttə ki, çalışmaq, mübarizə aparmaq lazımdır. Bu ölkədə demokratiyanın, haqqın, ədalətin bərqərar olunması uğrunda bundan sonra da vuruşmalıyıq. Çünki o vaxt imperiyaya qarşı vuruşmaq, bəlkə də daxildəki qüvvələrə qarşı vuruşmaqdan daha asan idi. Bütün qüsurları ilə birlikdə müstəqil Azərbaycanı böyük bir qazancımız hesab edirəm. Onu qorumaq üçün çalışmalıyıq".



Sabir Rüstəmxanlı



Hacıbaba Əzimov

**S.Rüstəmxanlı qeyd etdi ki, müstəqillik yolunda xidmətləri olmuş şəxsləri bu gün unutdurmağa çalışırlar:** “Müstəqillik hər xalq üçün birinci şərtdir. Ona görə də o günlərdə iştirakımdan, 1988-ci ildə başlayan meydan hərəkatının əsas aparıcılarından, liderlərindən biri olmağımla, 1991-ci ilin 17 martında keçirilən referendumda SSRİ-nin əleyhinə səs verən cəmi 42 nəfərdən biri olmağımla, sonra da ”Müstəqillik Aktı"nı hazırlayıb ona qol çəkdirməyimlə qürur duyuram. Bəzən deyirlər ki, SSRİ onsuz da dağıldı və başqa respublikalar, hətta bizdən də əvvəl müstəqillik əldə etdilər. Ancaq onu nəzərə almaq lazımdır ki, SSRİ-ni dağıdan əsas qüvvə Azərbaycan Xalq Hərəkatı oldu".

**“Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı”nın mətninin müəllifi, istiqlalçı deputat, Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov bildirdi ki, müstəqillik bizim üçün çox qiymətlidir:** “Bu illər ərzində torpaq itkilərimiz olub, şəhidlər vermişik, ölkəmizdə arzulamadığımız siyasi sistem bərqərar olub. Bütün bunlara rəğmən, müstəqillik ən böyük nemət, ən böyük qazancdır. Azərbaycan xalqının hər bir övladı, o cümlədən müstəqilliyin əldə edilməsində xidmətləri olan bizlər həmişə qürur duyuruq və duymalıyıq ki, Azərbaycan xalqı müstəqil ölkədə, müstəqil dövlətdə yaşayır. Dünya da bizim müstəqilliyimizi, ərazi bütövlüyümüzü qəbul edib - baxmayaraq ki, ərazimizin bir hissəsi Rusiya imperialistlərinin köməyi ilə Ermənistan tərəfindən işğal olunub. Amma bütövlükdə götürəndə bütün dünya Azərbaycanın ərazi bütövlüyünü qəbul edir və Azərbaycanı müstəqil dövlət kimi tanıyır. Bu, əlbəttə, bizim fəxrimizdir, uğurumuzdur. Çünki 70 ildən çox Azərbaycan Sovet İttifaqı deyilən bir imperiyanın əsarəti altında yaşamışdı. Bu müstəqillik də ona görə bizim üçün çox dəyərli, çox qiymətlidir”.

**H.Əzimov da müstəqilliyimizdə zəhməti olan şəxslərə göstərilən biganəlikdən, diqqətsizlikdən narazılıq etdi:** “Bu müstəqilliyin əldə edilməsində xidmətləri olan istiqlalçı deputatların, o cümlədən Azadlıq hərəkatında müstəqillik naminə fədakarlıqla mübarizə aparanların, bu yolda canlarını fəda edən ”20 Yanvar" şəhidlərinin, ərazi bütövlüyümüz uğrunda mübarizə aparan Qarabağ şəhidlərinin xidmətlərini unutmaq olmaz. Təəssüflər ki, bu gün Azərbaycanda mövcud hakimiyyət müstəqilliyimizin doğrudan da böyük bir sərvət, dəyər olduğunu sözdə qəbul etsə də, əməldə buna lazımi diqqət yetirilmir. Müstəqilliyin əldə edilməsində xidməti olan ziyalılara qarşı təqiblər olub, onların xidmətlərinə dəyər verilməyib - xüsusilə də müstəqilliyin əldə edilməsində çox böyük çabalar, mücadilələr göstərmiş istiqlalçı deputatlara, həmin deputatlara ki, SSRİ dağılmasaydı, hər biri güllələnəcəkdi. İndi dövlət müstəqilliyi günü münasibətilə keçirilən dövlət tədbirinə istiqlalçı deputatlar dəvət edilmir. Bu, acı təəssüf doğurur. Biz nə üçün həyatımızı müstəqilliyin qazanılmasına qurban verirdik, riskə atırdıq? Ona görə ki, Azərbaycan xalqı neftdən, qazdan, digər sərvətlərdən gələn böyük gəlirlərdən faydalansın, varlı bir həyat yaşasın, dünyada öndə gedən ölkələrdən olsun. Təəssüf ki, bu sərvətləri Azərbaycan xalqına yad nəzərlərlə, düşmən gözüylə baxan məmurlar mənimsəyir, hər cür vasitələrlə, xalqa qarşı müxtəlif təzyiqlər etməklə onu əsarətdə saxlamağa çalışırlar. Ən böyük itkilərdən biri budur. Arzumuz odur ki, müstəqilliyimizə yad olan meyllər, cərəyanlar aradan qalxsın. Azərbaycan xalqı özündə güc tapıb bu hallara son qoymaq üçün cidd-cəhdlə çalışmalıdır. Nə qədər ki, bu hallar aradan qalxmayıb, Azərbaycan xalqı özünü tam azad bir ölkədə hiss edə bilməz, etmir də".

**Xatırladaq ki, 1991-ci il 18 oktyabrda dövlət müstəqilliyimizin lehinə Ali Sovetin 360 deputatından 258-i səs verib. 31 deputat əleyhinə səs verib, digərləri isə iclasa qatılmayıb.**

❑ Etibar SEYİDAĞA



# Aşura qadağasının şok səbəbi

## Ölkədə terror təhdidinin qarşısının alındığı, dini zəmində qarşıdurma yaradılmasına hesablanmış provokasiya hazırlandığı haqda iddialar var

**Azərbaycanda Aşura günü hökumətin küçə yürüşlərinə qadağa qoyması ölkədə birmənalı qarşılanmadı. Hətta dindarlar arasında ciddi etirazlar, narazılıqlarını bildirənlər oldu. Bəzi ehtimallara görə, hökumət ildən-ilə artan kütləvilikdən narahat olduğu üçün builki Aşura aksiyalarına, xüsusən də məscidlərdən kənarda, açıq havada toplantılara və yürüşlərə qarşı məhdudiyyət tətbiq etdi.**

Polis və hökumət məmurlarının cəhdləri nəticəsində builki Aşura mərasimlərində açıq havada kütləvi yürüşlər olmadı. Azərbaycan hakimiyyətinin uzun illər heç bir məhdudiyyət tətbiq etmədiyi, heç bir maneə yaradılmayan Aşura mərasimlərinə bu ildən qoyulan qadağaların səbəbi müəyyən mənada anlaşılmaz oldu. Əlbəttə, aydın məsələdir ki, həddən artıq kütləvilik, əhalinin toplanaraq küçələrdə yürüşlər keçirməsinin hakimiyyəti narahat etməsi ilə bağlı versiyalar var. Lakin bugünlərdə aldığımız məlumata görə, builki qadağanın arxasında daha ciddi və təhlükəli səbəb olub.

Bizə çatan bilgilərə görə, Aşura günü tez-tələsik tətbiq olunan və polis vasitəsilə həyata keçirilən yürüş və toplanmaların qarşısının alınmasının əsas səbəblərindən biri terror təhdidi olub. Hüquq-mühafizə orqanları Aşura günü Azərbaycanda kütləvi tədbirlərin keçirildiyi məkanlardan birinə terror hazırlanması haqda məlumat əldə edib. Daha sonra bu istiqamətdə əməliyyat keçirilib və həbslər aparılıb. Həmçinin ictimai nəqliyyatda, alış-veriş mərkəzlərində də terror aktlarının olacağına dair xüsusi xidmət orqanlarına siqnal daxil olduğu deyilir.

Lakin eyni zamanda təhlükəsizlik orqanları terror təhdidinin hələ davam etdiyi və Aşura günlərində kütləvi toplantı olan məkanlara olan təhlükəni nəzərə alaraq maksimum dərəcədə aksiyaları məhdudlaşdırmaq, Aşura mərasimlərinin daha çox qorunan və ya təhlükəsizlik baxımından nəzarət etməyin mümkün olduğu məkanlarda keçirilməsinə çalışıb.

Qeyd edək ki, demək olar ki, hər il Aşura günləri İraq, İran, Suriya, Pakistan və digər şiələrin kompakt yaşadığı bölgələrdə terror baş verir və ya buna cəhdlər olur. Xüsusən də son illərdə müsəlman dünyasında təkfirçi fikirlərin geniş yayılması, radikal təkfirçi qrupların fəallaşması digər dini qrupları, o cümlədən şiələrə qarşı terror hücumlarının artımı ilə müşayiət olunur. Xüsusən də Aşura mərasimləri kimi təkfir etdikləri dini mərasimlərə hücumlarda fəallıq göstərirlər. Builki Aşura günlərində İranda terror hazırlayan qrup ifşa olunub və 100 kq partlayıcı ələ keçirilib.

Azərbaycan uzun illərdir bölgənin sabitlik adası olsa da, zaman-zaman burda da terror cəhdləri olub. 2000-ci illərin əvvəllərində radikal islamçıların terror fəaliyyətləri olsa da, təhlükəsizlik orqanları bu fəaliyyətlərin qarşısını alıb. Görünür ki, Azərbaycan da radikal təkfirçilərin hədəfindədir.

Ancaq eyni zamanda bu hadisənin planlanmış təxribat olması ehtimalı da güclüdür. Çünki Azərbaycan əhalisinin böyük əksəriyyətinin mənsub olduğu məzhəbin əsas hüznlü günlərindən olan Aşura zamanı terrorun törədilməsi ölkədə dini zəmində gərginliyi daha da artıra, dini cərəyanlar arasında nifrəti dərinləşdirə bilər, hətta toqquşmalara gətirə bilər. Azərbaycanın yerləşdiyi coğrafi məkan bu cür gərginlik və təxribatın ciddi nəticələr doğurmasına səbəb olar.

Qeyd edək ki, hələlik rəsmi qurumlar Azərbaycanda hansısa terror təhdidinin olması barədə açıqlama verməyib. Çox güman ki, daha əvvəlki vaxtlarda olduğu kimi bu cür açıqlama olmayacaq. Ancaq son zamanlar dövlət rəsmilərinin xarici təhdidlər və təzyiqlərlə bağlı ardıcıl xəbərdarlıqları müəyyən mənada bu cür narahatlıqların ifadəsi sayıla bilər.

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016





# "100 min dollardan çox istiqraz alan şəxslər oldu"

## SOCAR rəhbərliyi istiqrazların satışının yekunu ilə bağlı mətbuat konfransı keçirdi

**"100 milyon bizim gündəlik əməliyyatlarımızda istifadə olunan bir məbləğdir. O baxımdan, istiqrazlarla bağlı hər hansı bir risk yoxdur". Bu sözləri oktyabrın 18-də SOCAR istiqrazlarının satışının yekunlaşması və təkrar bazar əməliyyatlarının başlanması ilə bağlı keçirilən mətbuat konfransında SOCAR prezidenti Rövnəq Abdullayev bildirib.**

Konfransda Rövnəq Abdullayevlə yanaşı, Milli Depozit İdarə Heyətinin sədri Araz Əliyev, Bakı Fond Birjasının İdarə Heyətinin sədri Fariz Əzizov, SOCAR-ın iqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımov və SOCAR-ın kapital bazarları üzrə baş məsləhətçisi Ali Ağaoğlu iştirak edib.

**Rövnəq Abdullayev** çıxışına Azərbaycanın dövlət müstəqilliyi ilə bağlı təbriklə başlayıb. Sonra deyib ki, istiqrazlar Azərbaycan bazarında yeni mərhələdir: "Elə bir dövr gəlib ki, artıq şirkətlər gəlirlərini xalqla bölüşməlidirlər. Bu, səhmlə ola bilər, istiqrazla ola bilər. Müxtəlif alətlərlə vətəndaşlarımız da ölkənin iqtisadi inkişafında iştirak etməlidir. Bu istiqrazların bazarda uğur qazanmasında bir çox dövlət qurumları iştirak ediblər. Mən Maliyyə Bazarlarına Nəzarət Palatasına minnətdarlığımı bildirirəm. Bakı Fond Birjasına, "ASAN xidmət"ə, banklara təşəkkürümü bildirirəm. Bu, Azərbaycanda bir ilkdir. İndi biz bu işə uğurla başladıq. Əsas məqsədimiz istiqrazlardan xalqın, fiziki və hüquqi şəxslərin qazanması idi. Çox yaxşı nəticə əldə etdik. 100 milyon istiqraz buraxdıq. 203 milyon tələb gəldi və sifariş verənlərin əksəriyyəti fiziki şəxslər idi. Bu da çox yaxşı nəticədir. Artıq bazarda SOCAR istiqrazlarının alınıb-satılmasının ikinci mərhələsi başlayır. Bu gündən 2021-ci ilə qədər qiymətli kağızlarımız bazarda olacaq, biz də market-meyker kimi bazarda olacağıq. Nominal dəyərdən, yəni 1000 manatdan hər zaman istiqrazları almağa hazır olacağıq. İstənilən şəxs vəsaitlərini həmin gün geri ala bilər. Biz SOCAR olaraq 2 milyarddan çox məbləğdə avrobond buraxmışıq və heç bir avrobonda bu imkanları verməmişik. Həmin istiqrazlar belədir ki, onu alırsansa, neçə il müddət qoyulubsa, ondan sonra satmaq mümkündür. Biz öz vətəndaşlarımız üçün xüsusi imkanlar yaratdıq ki, bu istiqrazlardan qazana bilsinlər".

**Rövnəq Abdullayev onu da vurğulayıb ki, növbəti mərhələdə də istiqraz buraxacaqlar və artıq onun faizi daha az olacaq:** "Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) bazardakı tələbdən asılı olaraq daha bir istiqraz emissiyası həyata keçirə bilər. Bunu 2017-ci il üçün nəzərdə tuturuq. Həmin istiqrazların gəlirliliyi ilk emissiyaya nisbətən aşağı olacaq. SOCAR istiqrazlarının daha çox investoru əhatə etməsi üçün növbəti emissiyanın məbləğinin azı 200 mln. dollar olması nəzərdə tutulub".

**Milli Depozit İdarə Heyətinin sədri Araz Əliyev də çıxış edərək SOCAR istiqrazlarının digər qiymətli kağızlardan daha maraqla qarşılandığını və bazarda canlanma yaratdığını deyib:** "SOCAR-ın uğurlu enerji siyasəti nəticəsində əldə etdiyi nailiyyətlər iqtisadiyyatımıza birbaşa təsir göstərir, dövlətimiz də bu nailiyyətlərdən bəhrələnir. Bu baxımdan, ölkə iqtisadiyyatında aparıcı rol oynayan Dövlət Neft Şirkətinin qiymətli kağızlar bazarında iştirakı investorlar tərəfindən maraqla qarşılandı və Azərbaycanın qiymətli kağızlar bazarında canlanma yarandı. Onu da qeyd etmək lazımdır ki, istiqraz satışı istiqamətində bir neçə qurum- "ASAN xidmət", Milli Depozit Mərkəzi, Bakı Fond Birjası birgə iştirak etdilər.

Düzdür, bu işdə müəyyən çatışmazlıqlar da yarandı. Lakin bu, ümumi işin gedişinə təsir göstərmədi. Nəzərə almaq lazımdır ki, investisiya şirkətlərinin təcrübəsi də belə böyük həcmli əməliyyatlarla formalaşır. Ümid edirəm ki, növbəti qiymətli kağız buraxılışları qüsursuz həyata keçiriləcək. 15 ildən çox təcrübəyə malik olan qiymətli kağızlar bazarı üçün bu hadisə yeni olmasa da, bazar üçün çox müsbət təsirə malik oldu və bu təsir davam edəcək. SOCAR istiqrazları həm adi vətəndaşlar, həm də investorlar üçün yüksək tələblə qarşılandı. Tələb real məbləği iki dəfəyədək üstələdi.

Son dövrlər iqtisadiyyatımızda yaşanan bəzi problemlər qiymətli kağızlar bazarına da təsir edərək müəyyən durğuluq yaratmışdı, investorların bazara marağı azalmışdı. Bazarda yeni və etibarlı investisiyaya ehtiyac var. SOCAR istiqrazları bazarda bu durğunluğu aradan qaldırdı. Hazırda bazarda canlanma var. SOCAR istiqrazları üzərində böyük iqtisadi əməliyyatların aparılması ilə bağlı müzakirələr aparılır. Müzakirələrin nəticəsi olaraq bir neçə razılaşma əldə olunub. Belə ki, Milli Depozit Mərkəzi tərəfindən SOCAR istiqrazları likvit qiymətli kağızlar kimi qəbul olunub. İstiqrazların likvitliyi tələbatın rekord həddə çatmasına səbəb oldu. Bu böyük uğurdur. SOCAR istiqrazları gəlirlilik və etibarlılıq baxımından aktivlik yaradaraq, bazarda dövriyyədə olmayan vəsaitlərin də iqtisadiyyata cəlb olunmasına şərait yaradır".



**Rövnəq Abdullayev:** "Elə bir dövr gəlib ki, artıq şirkətlər gəlirlərini xalqla bölüşməlidirlər"

**SOCAR-ın kapital bazarları üzrə baş məsləhətçisi Ali Ağaoğlu çıxışında bildirib ki, Dövlət Neft Şirkəti hər gün bazarda istiqrazları likvitləşdirməyə hazır olacaq:** "Mən 30 ildir qiymətli kağızlar bazarında çalışan biri olaraq deyirəm ki, belə bir təminat və bu faizlə gəlir heç bir qiymətli kağızda verilməyib. Bu təminat çox qiymətlidir. SOCAR bu prosesdə həm alış, həm də satış həyata keçirəcək, qiymətlərin yanlış istiqamətə getməsinə mane olacaq. Bu, Azərbaycandakı bütün qurumlar üçün önəmli hadisədir. Bizim arxamızca digər şirkətlər də gələ bilər. Biz ilk addımı atdıq".

**Bakı Fond Birjasının İdarə Heyətinin sədri Fariz Əzizov isə ikinci mərhələdə bazarın daha aktiv olacağını bildirib:** "Rövnəq müəllimin də bildirdiyi kimi, ilkin yerləşdirmədə tələb təklifi iki dəfə üstələyib. Bu isə o deməkdir ki, bizi çox aktiv təkrar bazar gözləyir. Yəni təmin olunmamış tələblər var. İnvestorlar istiqrazları bazarda reallaşdıra biləcəklər. Bu baxımdan, istiqraz sahiblərini təbrik edirəm.

Tədbirin sonunda jurnalistlərin sualları cavablandırıldı.

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban SOCAR istiqrazlarına bir fiziki və ya hüquqi şəxs tərəfindən ən çox nə qədər tələb gəldiyini soruşdu:**

***- SOCAR istiqrazlarına tələb böyük oldu. İctimaiyyət üçün maraqlı olan məqam odur ki, müştərilərin neçə faizi fiziki şəxslərdir, neçə faizi hüquqi şəxslərdir? İkincisi, bu istiqrazların Azərbaycan üzrə coğrafi paylaşımı necə oldu? Üçüncüsü, ən çox alan fiziki şəxs nə qədər istiqraz aldı?"***

**İlham Şabanın ilk olaraq sonuncu sualını cavablandıran SOCAR-ın kapital bazarları üzrə baş məsləhətçisi Ali Ağaoğlu bildirdi ki, bu suala cavab vermək səlahiyyətləri yoxdur:** "Orada insanların sərvətləri haqqında bilgilər var və bunu paylaşmaq olmaz. Sadəcə, onu deyə bilərəm ki, bəzi fiziki şəxslərdən 100 min dolların üzərində tələb gəldi. Ancaq rəqəmləri konkret səsləndirməyimiz doğru olmazdı. 100 min dollardan daha yuxarı məbləğdə istiqraz alan şəxslər oldu. 100 mindən artıq olan tələblərin hamısını qarşılaya bilmədik. Bütün tələbləri toplayıb, böldük, orta hesabla verdik. İkinci sualın cavabı odur ki, tələbin 95 faizi fiziki şəxslərdən gəldi. Coğrafi baxımdan tələb sayına görə, regionlardan gələn tələb daha çox idi. Ancaq məbləğə görə paytaxtdan gələn tələblər daha üstün oldu".

*Xəzər televiziyasının müxbiri:*

***- SOCAR istiqrazları 5 illik buraxılır. İki ildən sonra vətəndaş onu satarsa, alan şəxs üçün istiqrazın müddəti necə il olacaq?***

- 3 il. Ümumi olaraq 5 il götürülüb. Bu müddət ərzində neçə dəfə satılmasından asılı olmayaraq müddət dəyişmir.

*Moderator.az saytının müxbiri:*

***- Təminatdan danışdınız. Sabah dünyada iqtisadi böhran baş verərsə, o zaman hansı risklər olacaq? İkinci sualım, MDB məkanında belə qiymətli kağızlar varmı?***

Rövnəq Abdullayev:

- İstənilən halda biz istiqrazlarımıza təminat veririk. Risk deyərkən, 100 milyon manat SOCAR üçün elə də böyük məbləğ deyil. Bu bizim gündəlik əməliyyatlarımızda istifadə olunan puldur. Risk daha çox 5-6 milyardlıq layihələrdə ola bilər. İkinci suala gəlincə, bu bizdə ilkdir, MDB məkanında belə təcrübə olub.

*Qafqazinfo saytının müxbiri:*

***- Mənim sualım istiqrazlarla bağlı deyil. Bir neçə gündür ki, paytaxtda və bölgələrdə əhali qaz problemi yaşayır. Bizə maraqlıdır ki, SOCAR qazın həcmini nə zaman artıracaq?***

*Rövnəq Abdullayev:*

- "Azərbaycanda qış rejiminə keçid noyabrın 1-də baş verir. Yayda isə qazın təzyiqi aşağı salınır. Hər il qış rejiminə keçiddə təzyiq 3 dəfə artırılır. İndi bir neçə gündən sonra hava istiləşəcək, temperatur qalxsa da, insanların qaza olan tələbatı qış rejimindəki kimi qalır. İnsanlar qazın "xodu"nu almır, əvəzində pəncərəni açıq saxlayır. Keçən ildən anbarlarda qaz ehtiyatlarımız var. Qaz təminatında elə bir problemimiz yoxdur. 15 gündür ki, "Azəriqaz" qış rejiminə keçidlə bağlı məsələlərə başlayıb. Artıq qurum bir neçə günə qış rejiminə tam hazırlıqlı olacaq.

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRD**

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016



# Prezident İlham Əliyev növbədənkənar seçki məsələsinə nöqtə qoydu

## "Prezident seçkiləri iki il sonra olmalıdır" deyən dövlət başçısı namizəd ola biləcəyi ilə bağlı suala da cavab verib; müxalifətdən reaksiyalar var

**Prezident İlham Əliyev Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsi ehtimalını şərh edib. Dövlət başçısı Rusiyanın "Sputnik" beynəlxalq informasiya agentliyinə müsahibəsində növbədənkənar seçkilərin keçiriləcəyi barədə söz-söhbətləri təkzib edib. Habelə bildirib ki, onun növbəti prezident seçkilərində iştirakı barədə danışmaq hələ tezdir: "Bizim seçkilərin vaxtını dəyişmək niyyətimiz yoxdur. Mən bilirəm Azərbaycanda, onun hüdudlarından kənarda hansı söz-söhbətlər gəzir. Belə plan yoxdur və mən buna zərurət görmürəm. Mənim iştirak edib-etməyəcəyimə gəldikdə isə növbəti prezident seçkiləri iki il sonra olmalıdır, ona görə də hələ hansısa qərar vermək üçün tezdir. Əgər mən bugünkü kimi əhalinin dəstəyini hiss etsəm, o zaman əlbəttə ki, bu etimadı doğrultmağa çalışacağam".**

Müstəqil siyasi ekspertlər, hakimiyyətə yaxın deputatlar hesab edir ki, bu açıqlaması ilə dövlət başçısı yaxın vaxtlarda növbədənkənar prezident seçkilərinin təyin ediləcəyi barədə xeyli vaxtdır yayılan söz-söhbətə son qoymuş oldu. Bəlli oldu ki, ölkədə prezident seçkiləri əvvəldən nəzərdə tutulduğu vaxtda-2018-ci ildə keçiriləcək.

Qeyd edək ki, YAP icra katibinin müavini Siyavuş Novruzov istisna olmaqla, bir çox partiya funksionerləri mediaya müsahibələrində növbədənkənar prezident seçkilərinin keçiriləcəyi ehtimalının böyük olduğunu bildirirdilər. Yalnız Siyavuş Novruzov hələ referendumdan öncə "Yeni Müsavat"a müsahibəsində demişdi ki, prezident seçkilərinin vaxtı 2018-ci ildir, növbədənkənar prezident seçkilərinin keçiriləcəyi barədə deyilənlər əsassız söhbətdən başqa bir şey deyil. Prezidentin son açıqlaması YAP-çı deputatın "yuxarıların" mövqeyindən daha məlumatlı olduğunu ortaya çıxardı.

Müxalifət düşərgəsi isə hesab edir ki, konstitusiyada yeni dəyişikliklər növbədənkənar prezident və parlament seçkilərinin keçirilməsi zərurətini yaradır.

**Ümid Partiyasının sədri İqbal Ağazadənin sözlərinə görə, hüququn fəlsəfəsi onu tələb edir ki, konstitusiya ilə icra strukturlarının və qanunverici orqanın vəziyyətində dəyişiklik olubsa, yeni seçkilər keçirilməlidir. Çünki 2013-cü ildə keçirilən prezident seçkilərində xalq konstitusiya ilə səlahiyyətləri başqa olan prezidentə səs verib. O cümlədən 2015-ci il parlament seçkilərində də xalq səlahiyyətləri fərqli şəkildə olan Milli Məclisin seçkilərində iştirak edib:** "Qanunun fəlsəfəsi onu deyir ki, bu, ya konstitusiyada keçid müddəaları altında "filan ildən qüvvəyə minəcək" kimi xüsusi qeydlə qəbul olunmalı idi, ya da icra hakimiyyətinin və parlamentin vəziyyətində bu qədər dəyişikliklər baş veribsə-səlahiyyətlər artırılıb-azaldılıbsa mütləq yeni seçkilər keçirilməlidir. Vitse-prezidentlərin təyin edilməsi, parlamentin buraxılması, növbədənkənar seçkilərin təyin edilməsi və digər bir sıra səlahiyyətlər 2013-cü ildə seçilən prezidentə verilməmişdi. Yeni konstitusiya dəyişiklikləri isə bu səlahiyyətləri prezidentə verir. Növbədənkənar seçkilərin keçirilməyəcəyi barədə cənab prezidentin açıqlamasını mən də oxudum. Seçkilər keçirilməyəcəksə, ola bilsin vitse-prezidentlər təyinatı da növbəti seçkiyə qədər olmasın. Bu da bir faktdır ki, siyasətdə "olmaz" anlayışı yoxdur. Ola bilsin, cənab prezident seçkilərin nəzərdə tutulmadığını bugünkü gün üçün deyib".

**ADP sədri Sərdar Cəlaloğlu dedi ki, 26 sentyabr tarixində keçirilən referendumdan sonra konstitusiyanın yeni tələbləri var və bunlar həyata keçirilməlidir:** "Prezident və parlament seçkiləri keçirilməyəcəyi təqdirdə yeni konstitusiya pozulmuş olacaq. Əgər referendum konstitusiyada icra və qanunverici orqanın vəziyyətini dəyişməzdirsə, yalnız insan haqları ilə bağlı vəziyyəti dəyişmiş olsaydı, yaxud da daha aşağı qurumların vəziyyətini dəyişmiş olsaydı, prezident və parlament seçkilərinə heç bir ehtiyac qalmazdı. Konstitusiyada keçid müddəası olsaydı, növbədənkənar seçkilərə ehtiyac olmazdı. Keçid müddəası isə yoxdur. Ona görə də ortaya çox ciddi uyğunsuzluq çıxır. Yeni prezident və parlament seçkisi keçirilməlidir ki, konstitusiyaya uyğun vəziyyət təmin edilsin. Seçkilər keçirilməyəcəksə, onda belə çıxır ki, konstitusiyaya dəyişikliklər İlham Əliyevin 5 illik prezidentlik dövrü qurtarandək qüvvədə olmayacaq, vitse-prezidentləri də 2018-ci ildə keçiriləcək seçkilərdə seçilən prezident təyin edəcək? Ona görə də yaxşı olar ki, Konstitusiya Məhkəməsi məsələyə münasibət bildirsin. Şəxsən mən düşünürəm ki, növbədənkənar seçkilərə qərar veriləcək. Məncə, heç kimin gözləmədiyi anda seçkilər təyin edilə bilər".

❑ **Etibar SEYİDAĞA**

# Prezident: "Neft 70 dollaradək bahalaşa bilər"

**"Bu gün həm neft hasilatçıları, həm istehlakçılar qiymətin stabilləşməsinə nail olmaq istəyir. Çünki ucuz neft istehlakçılara da zərbə vurub. Əlbəttə, bu gün neft hasilatı ilə məşğul olan ölkələrin iqtisadiyyatı mövcud durumdan daha çox əziyyət çəkir". "APA-Economics" xəbər verir ki, bunu Azərbaycan prezidenti İlham Əliyev "Sputnik" beynəlxalq informasiya agentliyinə müsahibəsində deyib.**

Ölkə başçısı hesab edir ki, OPEC-ə üzv olan və olmayan ölkələr tərəfindən hasilatın azaldılması qiymətləri stabilləşdirə bilər: "Hadisələrin gedişatı onu göstərir ki, hər şey buna doğru gedir. Məncə, bu, baş verməlidir. Lakin tərəflər maksimum səmimi, dürüst olmalıdır, qəbul olunan qərarların icrasına nəzarət olunması üçün mexanizm hazırlanmalıdır. Hazırda qlobal neft bazarındakı şərait neftin 60, hətta 70 dollaradək bahalaşmasına səbəb ola bilər ki, bu da bütün tərəflər üçün əlverişlidir - şirkətlər investisiya qoyuluşunu artıra, hasilatla məşğul olan ölkələr isə əldə etdiyi vəsaiti müxtəlif layihələrin reallaşdırılmasına yatıra bilər. İstehlakçılar bundan ancaq udacaq".

**Prezident əlavə edib ki, Azərbaycan hər zaman bu cür addımları dəstəkləyir və bunu dəfələrlə bəyan edib.** "Biz birmənalı olaraq bəyan edirik ki, neft hasilatımızı artırmayacağıq. Bunun üçün hansısa qərarı gözləməyə ehtiyac duymuruq. Müəyyən mənada bunu hasilatın dondurulması adlandırmaq olar", - deyə o qeyd edib.

# Norveçə necə getməli? - budur sual



**Samir SARI**

**25 il öncə oktyabrın 18-də Azərbaycan parlamentində dövlət müstəqilliyimizə dair konstitusiya aktı qəbul olunduqdan bir müddət sonra vaxtilə Rusiyaya işləməyə getmiş, bir çoxu da hərbi xidmətdən qayıtmayaraq, Tümen tərəflərdə ilişib qalmış kəndçilərimiz yavaş-yavaş kəndə qayıtmağa başladılar.**

Onların 10-dan 9-u yaxşı gəlmişdi, əyinlərində 1000 manatlıq palto-plaş, başlarında xəz papaq vardı, bəziləri kəndə gələn kimi ev tikdirməyə başladı, maşın alanlar da oldu.

Dostumuz Farizin ibarəsiylə desək, əməzəkliyi (fərasətsizliyi) üzündən kənddən qırağa çıxa bilməyən, eləcə də ailə vəziyyətinə görə Rusiyaya getməmiş, amma həmişə bu arzuyla yaşamış adamlar Rusiyadan gələnlərin söhbətlərinə qulaq asır, axırda deyirdilər ki, ağlınız yoxdur, gül kimi həyatı qoyub niyə qayıtdınız bu xarabaya (onda hələ kəndimiz xaraba qalmamışdı, iki ildən sonra qalacaqdı).

Rusiyadan qayıdanlar deyirdilər, ta müstəqil dövlətik, rusların da başı çönür yavaş-yavaş, deyirlər, rədd olun, gedin öz müstəqil xarabanıza, həm də ən yaxşısı elə öz vətənimizdə, kəndimizdə yaşamaqdır.

O vaxt adamlara elə gəlirdi ki, müstəqillik gerçəkdən böyük nemətdir, artıq hər cür problemlər həll olunacaq, indiyəcən rus qoymurdu yaxşı yaşayaq, amma indi müstəqilik, hər şey yaxşı olacaq.

Dövlət müstəqilliyindən başqa yaxşı yaşamaq üçün haqq-ədalətin, demokratiyanın da lazım olduğunu o zaman çoxları bilmirdi. Elə indinin özündə də bunu az adam bilir.

Rusiyadan böyük arzularla öz kəndinə qayıtmış gənclərin 10-da 9-u iki-üç ildən sonra it peşmanı olaraq yenidən qayıdıb getdilər Rusiyaya. Hazırda onlar Moskvada, Krasnoyarskda, Arxangelskdə, Permdə, dünyanın qurtaracağı hesab edilən Kamçatkada yaşayırlar və öz-qohum əqrəbalarından da bir xeyli adamı yanlarına aparıblar.

Dünən, dövlət müstəqilliyinə dair konstitusiya aktının qəbul edilməsinin 25-ci ildönümündə sosial şəbəkədə bir qeyd gördüm. Onu hazırda Norveçdə, dünyanın qurtaracağı adlanan yerlərdən birində yaşayan İdrak Abbasov yazmışdı.

Həmkarımızın statusu beləydi: "Hazırda inboksumda azı 40 nəfərin oxunmamış mesajı var, hamı Norveçə gəlmək istəyir. Vallah, mən bu işlərdə mütəxəssis deyiləm, özüm burada bir jurnalist layihəsi ilə qonağam. Bura necə gəlmək və məskunlaşmaq olar məsələlərini çalışıb öyrənib daha geniş yazacam".

İdrak bu barədə yazmaqda olsun, mən də yazım ki, əmin ola bilərsiniz, onun daxili poçtuna məktub yazan 40 nəfərin 35-i gözünü müstəqil Azərbaycanda açan, ən azı ibtidai məktəbə müstəqillik dövründə gedən adamlardır.

Bəs onlar nədən bu müstəqilliyin qədrini bilmirlər, aradan çıxmaq istəyirlər? Çox sadə səbəbdən. Adamlar yaşamaq, həm də yaxşı yaşamaq istəyirlər. Bunlar o adamlardır ki, o gün İdrakın paylaşdığı videoda yol kənarına qoyulmuş və yanında sahibi olmayan meyvə-tərəvəz məhsullarını görürlər və hesab edirlər ki, o cür dürüstlüyü ilə seçilən ölkədə yaşamaq daha rahat olar. (Hərçənd Norveçə getmək istəyənlərin içində həmin o sahibsiz məhsulları çırpışdırıb başqa yerdə satmağı planlaşdıranlar da ola bilər).

Ölkədə on minlərlə gənc var ki, rahat, adam balası kimi yaşamaq istəyirlər, istəmirlər ki, hər dəqiqəbaşı (təhsildə, əsgərlikdə, iş axtaranda və s.) ayrı-seçkiliyə məruz qalsınlar.

Məsələn, dünən bir taksi sürücüsü danışır: "O gün Pirəküşküldən bir əsgəri şəhərə aparırdım, yolda qardaşına zəng vurdu ki, maşını apar yudurt, gəlirəm. Qardaşı ondan nəsə soruşdu, bu da dedi ki, yox, "Leksus"a dəymə, "Ferrari"ni çıxart".

Deyəcəklər, əsgər hara, "Ferrari" hara? Taksü sürücüsü dəqiqləşdirib ki, o adi əsgər deyil, adı hərbi hissənin siyahısında gedən, qərargahda işləyən, o biri əsgərlərə qoşulmayan, həftənin yarısını kazarmada yox, evində yatan, 5 aydan sonra atasının hesabına prokurorluqda müstəntiq olacaq universitet məzunudur. Əsgərliyə də ona görə gəlib ki, hərbi bileti olsun, gələcəkdə karyerasına xələl gəlməsin.

Bu cür "Ferrari"li əsgərin tay-tuşları isə Murovda qulluq edir və ata-anaları onlara yalvarır ki, dözümsüzlük göstərib fərarilik etməsinlər.

Bax, belə söhbətlər var, student qardaş, sən deyirsən ki, bizimkilər xaricə niyə qaçır, Norveçdə yel əsib, qoz töküləyib. Elədir, orda qoz yoxdur, amma ədalət var, burda isə ədalətə qoz qoyan yoxdur.



**Mirmahmud Mirəlioğlu:**
““Ac olaq, müstəqil olaq” sözləri ilə müstəqilliyi quranları..."



**Sülhəddin Əkbər:**
“Əli Əhmədov kimilər bu gün də müstəqilliyin nə olduğunu anlamayıblar"

# Əli Əhmədovun “Ac olaq, müstəqil olaq” sözlərinə sərt reaksiyalar

**YAP sədrinin və baş nazirin müavini, hakim partiyanın icraçı katibi Əli Əhmədovun müstəqilliyimizin 25 illiyi ilə bağlı keçirilən konfransda dediyi sözlər ciddi tənqid atəşinə tuş gəlib. YAP funksioneri müstəqilliyin qazanılmasında adı keçən şəxslərin, AXC hakimiyyətinin bostanına daş atıb.**

Ə.Əhmədovun müxalifət düşərgəsi tərəfindən etiraz doğuran fikirləri bunlardır: “Azərbaycanın müstəqilliyi o qədər də düzgün olmayan postulat üzərində qurulmuşdu. ”Ac olaq, müstəqil olaq!" şüarı üzərində müstəqil dövlət qurulacağı bəyan edilirdi. Xalq müstəqilliyini rifahı üçün arzu edir, ac olmaq üçün müstəqillik uğrunda mübarizə aparılmır. İnsanlar müstəqilliyin bəhrəsini görməlidirlər, əks halda, müstəqillik əl çatmayan, sonu dumanlı bir xəyala çevrilirdi..."

Milli azadlıq hərəkatının fəallarından, Elçibəy hakimiyyəti dövründə millət vəkili olan KXCP sədri Mirmahmud Mirəlioğlu hakimiyyət təmsilçisinin dediklərinə sərt reaksiya verdi: “Biz onun həm nitqinə, həm də azacıq da olsa, təhsilinə bələdik. Amma belə deyirsə, artıq ondan da şübhələnmək lazımdır. ”Ac olaq, müstəqil olaq" sözləri ilə müstəqilliyi quranları yəqin ki, büdcəni talamaqdan, rüşvətxorluq, korrupsiyanı ört-basdır etmək üçün belə deyirlər. Bu gün tox olan kimdir? Millət bu gün yaxşı gündə yaşayır? İnsanların sosial vəziyyəti, dolanışığı guya ki, yaxşıdır? Öz vəziyyətlərinə uyğun şəkildə Azərbaycanın tox olduğunu güman edirlər. Ölkəmizdə mənimsəmənin həddini bir neçə gün bundan əvvəl Beynəlxalq Bankın sabiq sədri ortaya qoydu. O, ölkəmizdə maliyyə nazirinin maliyyə fırıldaqlarını da sübut etdi. Azərbaycanda villaların sayı, büdcənin talan edilməsi, asfaltların bir yerə neçə dəfə töküləməsi və nəhayət, son günlərdə yağan yağışlar nəticəsində Bakının düşdüyü vəziyyət hakimiyyətin nə günə düşdüyünü göstərdi. Əli Əhmədovun belə halların baş verdiyi günlərdə bu cür bəyanatlar verməsi yəqin ki, onların bunu “haqq etdiyini” göstərir. Onların da, sizlərin və oxucularınızın, bütövlükdə hər kəsin bayramını təbrik edirəm".

**AXC hakimiyyəti dövründə milli təhlükəsizlik nazirinin sabiq birinci müavini işləmiş Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bunları dedi:** “Müstəqillik şəxsiyyət və ləyaqət məsələsidir. O millətlər müstəqilliyə can atırlar ki, keçmişlərini, milli, dini kimliklərini bilirlər. O cəmiyyətlərdə də namuslu, şərəfli insanlar üstünlük təşkil edirlər. Başqa millətin boyunduruğu altında yaşamağı deyil, müstəqil olmağı seçirlər. Öz qərarlarını özləri verir, həyatlarını özləri qururlar. Görünür, Əli Əhmədov kimilər bu gün də müstəqilliyin nə olduğunu anlamayıblar. Belə çıxır ki, bir ailə maddi ehtiyac içərisindədirsə, kimin imkanı varsa, gedib ona boyun əyməli, tabe olmalıdır. Pul qazanmayıbsa, müstəqillik haqqında da düşünməməlidir. Müstəqilliyi, milli kimlik, mənlik, şəxsiyyət məsələsini bu qədər aşağı səviyyəyə endirməyin özü çox acınacaqlıdır. Bunu hakimiyyətin yüksək pilləsində təmsil olunan, hakim partiyanın rəhbərlərindən biri olan şəxs deyir. Bütün bunlar onu göstərir ki, bu şəxslər müstəqil dövlətə, tutduqları postlara layiq deyillər. Bunların bu milləti, hökuməti, bizlərin qurduğu dövləti təmsil etməyə haqları çatmır”.

❑ Cavanşir ABBASLI

# Eldar Mahmudovla bağlı yeni iddialar- xaricə gedir, Bakıda restoranda olur...

## Məlumata görə, sabiq nazir bir il ərzində 5 dəfə ölkədən çıxıb, onun paytaxtın elit restoranında yeyib-içdiyi deyilir

**1 il əvvəl Milli Təhlükəsizlik Nazirliyində baş verən qəfil yoxlamalar qurumun ləğvi, bir çox vəzifəlilərin isə həbsi ilə sonuclandı. Bu müddət ərzində işdən qovulan milli təhlükəsizlik naziri Eldar Mahmudovun istintaqa cəlb edilməsi ilə bağlı rəsmi hər hansı bir açıqlama verilməyib. Deputat Zahid Oruc MTN olaylarının 1 illiyi ilə bağlı “Yeni Müsavat”a müsahibəsində sabiq nazirin həbs olunmamasının mümkün səbəblərini dilə gətirib. Deyib ki, E.Mahmudov nazirliyi dövründə ölkədən milyardlarla vəsait çıxara bilib. Deputat bu fikirdədir ki, sabiq nazirin həbs edilməməsi bu vəsaitin geri qaytarılmasına nail olmaqdan ötrü atılan addımdır.**



Z.Oruc həmçinin E.Mahmudovun vəzifədən qovulandan sonra öldürülməsi haqda yayılan məlumatlara da münasibət bildirib. Deyib ki, E.Mahmudov yaşadığı imarətində nəzarət altındadır. Azpolitika.info saytı bu xüsusda maraqlı informasiyalarla zəngin yazı təqdim edib.

Saytın yazdığına görə, çoxsaylı ağır cinayət ittihamlarına baxmayaraq, Eldar Mahmudovun barəsində cinayət işi başlanmayıb, həbs olunmayıb, ev dustaqlığı isə qeyri-rəsmi xarakter daşıyır - bu barədə rəsmi məhkəmə qərarı mövcud deyil. E.Mahmudovdan başqa ağır cinayət ittihamları ilə üzləşən onlarla keçmiş MTN vəzifəliləri, o cümlədən nazir müavini Hilal Əsədov, baş idarə rəisi Mövlan Şıxəliyev və digərləri məsuliyyətdən kənardadırlar. İstintaq yalnız ilk dalğada həbs olunan 21 nəfəri ittiham etməklə kifayətlənib. Sayt yazır ki, hələ də Eldar Mahmudovun “vurulmasının” əsl səbəbi tam bəlli deyil. İstintaqın əsas götürdüyü istiqamət və çoxsaylı sahibkarların mediadakı çıxışları isə əlbəttə ki, gerçək səbəbin üzərinə çəkilmiş pərdədir.

Açıq qalan ikinci sual Eldar Mahmudovun belə total əks-kampaniyadan, cinayət ittihamları və rəsmi hücumlardan sonra həbs olunmaması ilə bağlıdır. Bununla bağlı dolaşan ən populyar versiya 11 il Azərbaycanın xüsusi xidmətinə rəhbərlik etmiş Mahmudovun əlində çoxsaylı kompromat materialların olması və bundan öz təhlükəsizliyini təmin etmək üçün şantaj vasitəsi kimi istifadə etdiyi barədədir. Bu ehtimalı tam olaraq kənara itələmək mümkün olmasa da, bir qədər inandırıcı görünmür. Eyni məntiqlə götürsək, məsələn, Akif Çovdarovun, Elçin Quliyevin və digərlərinin də əlində güclü kompromatlar olmalı idi, lakin onlar həbsdədirlər.

Eldar Mahmudovun hələlik azadlıqda olmasının bir səbəbi də ölkədən çıxarılmış milyardlarla dolların geri qaytarılacağına olan ümiddir.

**Sayt Z.Orucun müsahibəsində dilə gətirdiyi “milyardlarla vəsaitin ölkəyə qaytarılmasına görə Eldar Mahmudovun azadlıqda qalması” fikrini təsdiqləyən məlumatları da diqqətə çatdırır:** “E.Mahmudov da bu şərtlə razılaşıb - müəyyən qədər bağışlanması müqabilində ölkədən çıxardığı kapitalın böyük hissəsini qaytarmağa meyllidir. Lakin bu əməliyyat bəlli səbəbdən - tərəflərin bir-birinə inamsızlığı ucbatından mərhələli şəkildə həyata keçirilir. Məlumata görə, Eldar Mahmudov pulların geri qaytarılması işi ilə şəxsən məşğul olur. Bu məqsədlə son bir ildə 5 dəfə ölkədən çıxıb və geri qayıdıb. Heç şübhə yoxdur ki, sabiq nazir ölkədən xüsusi razılıq əsasında, vaxtilə xaricə daşıdığı pulları gizli hesablardan çıxararaq geri qaytarmaq məqsədilə buraxılıb. Bu zaman təminat qismində isə əlbəttə ki, onun ailəsi çıxış edib...”

Yayılan məlumatlara görə, E.Mahmudov tez-tez Bakıda, Heydər Əliyev prospektində yerləşən elit “Miraj” restoranında olur. Spirtli içkilərə meylli olması hələ nazirliyi dövründən bilinən E.Mahmudovun restoranda gecəyarısına qədər olması da gələn məlumatlar sırasındadır. Əməkdaşımız restoranla əlaqə saxlayaraq sabiq nazirin ora baş çəkib-çəkməməsi ilə maraqlanıb. Restorandan müştərilərlə bağlı hər hansı bir açıqlama vermədiklərini söyləyiblər.

❑ E.HÜSEYNOV

# “Rabitəçilər məhkəməsi”nə sədrlik edəcək hakimin adı açıqlandı

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq aparat rəhbəri Vidadi Zeynalov və digərlərinin cinayət işi üzrə məhkəməyə sədrlik edəcək hakim bəlli olub.**



APA-nın məlumatına görə, cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyevin icraatına verilib.

İş üzrə Beytulla Hüseynov, Anar Mustafayev, Emin Məmmədov, Bayram Vəliyevə və “Aztelekom” MMC-nin baş mühasibi Oktay Rüstəmova Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), Vidadi Zeynalova, həmçinin “AzİnTelekom” MMC-nin baş direktoru Cəlil Cəfərova, “Azərpoçt” MMC-nin baş direktoru Qəmbər Bəybalayevə və “Optik Rabitə, Tikinti və Quraşdırma” MMC-nin direktoru Namazalı Məmmədova həmin məcəllənin 179.3.2 və 308.2-ci, MMC-nin baş mühasibi Səhrab Hümbətova isə 179.3.2, 308.2 və 313-cü maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə barələrində məhkəmənin müvafiq qərarları ilə həbs-qətimkan tədbiri seçilib.

# “MTN çetesi”ni ifşa edən iş adamının maşınının şüşələri sındırıldı - müəmma

**Bakıda, Yasamal rayonu, Parlament prospekti 1 ünvanında bir neçə bahalı avtomobilin şüşəsi sındırılıb. Bu haqda redaksiyamıza ərazidə yaşayan sakinlərdən biri məlumat verib. Deyib ki, şüşələri sındırılan 4 maşından birinin sahibi bir müddət əvvəl mətbuatda “MTN çetesi” ilə bağlı açıqlamaları və videosu yayılan Maqsud adlı iş adamıdır.**

Qaynağımız olayla bağlı əraziyə DİN rəsmilərinin və digər qurumların əməkdaşlarının da gəldiyini deyib. Bildirib ki, baş vermiş hadisə ilə bağlı Yasamal Rayon Polis İdarəsində(RPİ) araşdırma aparılır. Məsələ ilə bağlı Yasamal RPİ ilə əlaqə saxladıq. Polisdən məlumatı təsdiqləsələr də, araşdırmanın 26-cı polis bölməsində aparıldığını bildiriblər. 26-cı polis bölməsinin növbətçi hissəsindən isə əməkdaşımıza deyiblər ki, ərazidə 1 avtomobilin şüşəsinin sındırılması qeydə alınıb. Həmin avtomobil Maqsud Soltan oğlu Mahmudova məxsus olub. Polisdən hazırda müvafiq araşdırmaların aparıldığını, şüşəni sındırmış şəxsin aşkarlanıb istintaqa cəlb edilməsi üçün tədbirlər görüldüyünü deyiblər.

Faktla bağlı Cinayət Məcəlləsinin 177-ci - oğurluq maddəsi ilə cinayət işi başlanıb.

Məsələ ilə bağlı M.Mahmudovu da aradıq. Lakin M.Mahmudovun telefonu qapalı olduğundan onun fikirlərini öyrənə bilmədik. Qeyd edək ki, M.Mahmudova məxsus obyekt və bahalı avtomobil MTN çetesinin üzvləri tərəfindən əlindən alınıb. E.Mahmudov vəzifədən çıxarılandan sonra M.Mahmudov Baş Prokurorluğa müraciət edib, məhkəməyə iddialar verib. Ötən ilin noyabrında qəzetimizdə “Mənim brilyant qaşlarım niyə Eldar Mahmudovun balonundan çıxmalıdır?” - VİDEO"

http://musavat.com/news/musahibe/menim-brilyant-qashlarim-niye-eldar-mahmudovun-balonundan-chixmalidir-video_306028.html sərlövhəli yazıda iş adamı M.Mahmudov əmlaklarının əlindən alınmasının tarixçəsini anladıb. Hazırda onun əmlaklarının əlindən alınması ilə bağlı şikayəti üzrə Baş Prokurorluqda istintaq aparılır. Belə bir vaxtda M.Mahmudovun maşınının şüşəsinin sındırılması “MTN çetesi”nin onu hədələməsi kimi də dəyərləndirilə bilər.

Mövzuya qayıdacağıq.

❑ E.HÜSEYNOV

# Siyasi məhbusların yeni siyahısı elan olundu-qalmaqal başladı

## Siyahıya münasibət birmənalı deyil; hüquq müdafiəçiləri sərt danışdılar

**Azərbaycan Vətəndaş Cəmiyyətinin İşçi Qrupu 94 nəfərdən ibarət yeni vahid siyasi məhbus siyahısını açıqlayıb. Onlar arasında 6 jurnalist və blogger, iki publisist, bir hüquq müdafiəçisi, 5 gənc fəal, 5 siyasi partiya üzvü, 61 dindar və üç ömürlük məhbus var.**

Hesabatda ümumilikdə 139 şəxs barədə məlumat verilir. İşçi Qrupu 45 nəfəri potensial siyasi məhbus kimi tanıyır. Həmin şəxslərin işləri barədə sənədlərdə çətinliklər olduğundan onların adları hesabatdakı "İşləri monitorinq altında olanlar" bölməsinə daxil edilib.

İşçi Qrupu qeyd edir ki, ölkədə siyasi məhbusların sayı əslində qat-qat çoxdur.

İşçi Qrupunun fəaliyyətini hüquq müdafiəçiləri, keçmiş məhbuslar İntiqam Əliyev və Rəsul Cəfərov əlaqələndirib. Siyahıya 20-dən artıq hüquq müdafiəçisi, QHT rəhbəri, hüquqşünas imza atıb.

Qeyd edək ki, oktyabrın 20-21-də Cenevrədə BMT-nin İnsan Haqları Komitəsi tərəfindən Azərbaycanda insan haqlarının vəziyyəti müzakirə olunacaq.

APA-nın məlumatına görə, 18 beynəlxalq müstəqil üzvdən ibarət olan komitə Azərbaycan hökumətinin nümayəndə heyəti ilə Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktla (MSHBP) bağlı bir sıra məsələləri müzakirə edəcək. Üzvlər həmçinin QHT nümayəndələri ilə brifinq keçirəcəklər.

Noyabrın 4-də isə komitə Cenevrədə Azərbaycan və digər ölkələrlə (Slovakiya, Polşa, Moldova, Yamayka, Kolumbiya və Mərakeş) bağlı nəticələri müzakirə etmək üçün mətbuat konfransı keçirəcək.

Siyasi məhbus siyahısının Cenevrədə Azərbaycandakı insan haqlarının müzakirə ediləcəyi günlərə təsadüf etməsinin əhəmiyyəti vurğulanır.



**Mirvari Qəhrəmanlı:** "O siyahıya çox adam qol çəkə bilər"



**Novella Cəfəroğlu:** "94 nəfərlik məhbus siyahısını qəbul etmirik"

Hətta BMT-nin müzakirəsində bu məsələyə də diqqət ayrılacağı qeyd olunur.

Elan olunan məhbus siyahısına münasibət birmənalı deyil. Çoxları bu ilin əvvəllərindən başlayaraq, əksər siyasilərin azad edildiyini önə çəkərək, hazırda ölkəmizdə bu sayda siyasi məhbusun olmadığını iddia edirlər. Bunun əksini söyləyərək, siyahının doğru olduğunu, hətta bu saydan artıq siyasinin həbsdə olduğunu qeyd edənlər də var.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı siyasi məhbus siyahısını hazırlamağın və bu işlə məşğul olmağın çətinliklərindən danışdı:** "Siyahı ilə mətbuatdan tanış oldum. Orada bu sahə ilə məşğul olanlardan bir neçə real şəxsi gördüm. Məsələn, onlardan biri Rəsul Cəfərovdur. Qol çəkənlər ona sadəcə dəstək verənlərdir. Siyasi məhbus kriteriyalarını bilmək və o işlə məşğul olmaq asan məsələ deyil. O siyahıya çox adam qol çəkə bilər. Hüquq müdafiəçisi olmasa da, özlərini bu adla qələmə verərək, qol çəkənlər ola bilər. Öz baxışlarına uyğun olaraq, zənn edirlər ki, bu siyahıda olanlar siyasi məhbuslardır. Mən bu siyahı ilə məşğul olmuram. Amma bu o demək deyil ki, anlayışım yoxdur. Siyasi məhbus termininə baxış müxtəlif ola bilər. Bu siyahıya qol çəkənləri gördüm. Onların çoxu hüquq müdafiəçiləri deyillər. Hərənin öz peşəsi var, o peşəni davam etdirsələr daha yaxşı olar. Azərbaycanda siyasi məhbus olduğunu heç kim inkar etmir. Hazırlanan hər bir siyahıya real baxış və yanaşma olmalıdır. Uzun siyahı hazırlayanlar düşünürəm ki, mütəxəssislərlə məsləhətləşməlidirlər. 94 nəfərin hamısının siyasi məhbus olduğunu bilmirəm. Tanıdığım çoxsaylı siyasi məhbuslar var".

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu bildirdi ki, siyahıda adı keçən şəxslərin çoxunun məhkəmələri belə olmayıb:** "Məhkəməsi olmayan şəxsləri siyasi məhbus adlandırmaq olmaz. Bəlkə onları buraxacaqlar, yaxud məhkəmələri normal olacaq. Sadəcə, məsələni şişirdirlər. Siyahıya saldıqları şəxslərin vəziyyətini ağırlaşdırırlar. Guya ki, bu adı alan şəxsləri tez azad edəcəklər? İlqar Məmmədovun adı neçə ildir siyasi məhbus siyahısında gedir. Onu azad edirlər? Bunlar öyrəşiblər ki, siyasi məhbus məsələsini qabardıb, həbsdə olanların vəziyyətini gərginləşdirsinlər. Siyasi məhbus Əli İnsanov, İlqar Məmmədov, jurnalistlər, NİDA-çılar, bloqçular və başqalarıdır. Bunlar neçə illərdir məhbusdurlar. Üç nəfər OMON-çu var ki, onların məsələsini qaldırmışıq. Onları insan öldürməkdə suçlayırlar. Biz həmin üç nəfərin məsələsini qaldıranda yanımıza gələnlər oldu ki, onlar bizim ailəmizi qırıblar, niyə siyasi məhbus elan edirsiniz. Amma biz yenə də onlar barəsində məsələ qaldırdıq ki, 15 ildən artıqdır həbsdədirlər. Yenidən məhkəmələrinin olmasını xahiş etdik. İnanclı insanlara gəlincə, onların çoxuna hörmət edirik. Burada ölüm hadisəsi olduğuna görə məhkəmələrdən işə obyektiv baxılmasını xahiş etdik. Bu məsələlərə ayrı-ayrılıqda baxmaq lazımdır. 94 nəfərlik siyasi məhbus siyahısını qəbul etmirik".

❑ **Cavanşir ABBASLI**



### Leyla və Arif Yunusların kasasiya şikayətinə baxılacaq

**Leyla və Arif Yunusların kasasiya şikayətinə nə vaxt baxılacağı məlum olub.**

Vəkil Elçin Sadıqov APA-ya bildirib ki, kasasiya şikayətinə oktyabrın 26-da Ali Məhkəmədə baxılacaq. Qeyd edək ki, Leyla və Arif Yunuslar Cinayət Məcəlləsinin 178.3.2-ci və digər maddələrinə əsasən ittiham olunublar. Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 avqust 2015-ci tarixli hökmü ilə Leyla Yunus 8 il 6 ay, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdə onların əmlaklarının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi öz əksini tapıb. Hökmdən narazı qalan təqsirləndirilən şəxslər apelyasiya şikayəti veriblər. Bakı Apelyasiya Məhkəməsinin 2015-ci il noyabrın 12-də keçirilən prosesində Arif Yunusun barəsində seçilmiş həbs-qətimkan tədbiri dəyişdirilib, ondan başqa yerə getməməklə bağlı iltizam alıb.

Bundan sonra Arif Yunus məhkəmə zalından azadlığa buraxılıb. 2015-ci il dekabrın 9-da isə apelyasiya şikayəti üzrə qərar elan edilib. Qərara əsasən Leyla Yunus barəsində təyin olunan 8 il 6 ay, Arif Yunus barəsində isə təyin olunan 7 il müddətində azadlıqdan məhrumetmə cəzası 5 il sınaq müddəti təyin olunmaqla, şərti hesab edilib. Leyla Yunus məhkəmə zalından azadlığa buraxılıb.

# Hacıbala Abutalıbovun son payızı

## Kabinet məmuru obrazı yaraşmayan BŞİH rəhbərinin qəfil "görünməz" olmasının səbəbləri haqda ilginc iddialar var; səlahiyyətlərinin xeyli hissəsini itirən meri hökumət adamlarının siyahısından çıxarıblar?

**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbov son aylar yalnız rəsmi tədbirlərdə və Azərbaycana gələn yüksək vəzifəli xarici qonaqlarla ara-sıra birgə görünür. Adətən Bakının payız və qış problemləri ortaya çıxanda qollarını çırmalayıb küçələrə çıxan Bakı "qradonaçalnik"i efirdən də uzaq düşüb. Son günlər aramsız yağan yağışlar paytaxtda ciddi problemlər yaradanda da Abutalıbov nə küçələrə çıxdı, nə efirə...Dövlət Müstəqilliyi günü ilə bağlı Heydər Əliyev Mərkəzində oktyabrın 17-də keçirilən tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə yanaşı əyləşmiş Bakı meri xeyli fikirli görünüb.**

Kabinet məmuru obrazı yaraşmayan Abutalıbovun qəfil belə "görünməz" olmasının səbəbləri haqda ilginc iddialar var. Məlumata görə, iş gününü də daha çox meriyadakı kabinetində keçirən Abutalıbov demək olar ki, şəhərə çıxmır, yalnız iclas olduqda yaxınlıqdakı Prezident Administrasiyasına gedir. Hər ay iki dəfə (cümə günləri) olan qəbul günlərində də onu müavinləri və ya idarə rəhbərlərinin əvəz etdiyi deyilir. Bu isə Abutalıbovun Bakının idarəçilik sistemində kənarlaşdırılması barədə ehtimallara rəvac verib. İddialar var ki, Abutalıbovu



AzTV-yə növbə ilə çağırılan "Günün nəbzi" proqramında da hökumət adamlarının siyahısından çıxarıblar.

Bu ilin may ayının 13-də 72 yaşı tamam olan Abutalıb icra başçıları arasında ən yaşlılardan biridir. 15 ildir ki, Bakıya rəhbərlik edən Abutalıbovun vəzifəsindən daha "ikiəlli yapışmağının" faydası olmadığı və səlahiyyətlərinin ən gəlirli hissəsindən məhrum edilməsi ilə barışdığı deyilir.

Məlumdur ki, Bakı şəhəri üzrə parkinqlərə və duracaq yerlərinin təşkili üçün parkomatlara nəzarət BŞİH-dən alınaraq yeni yaradılan Bakı Nəqliyyat Agentliyinə həvalə olunur. Paytaxtda avtobus marşrutlarını müəyyən etmək, duracaqlar yaratmaq, taksi fəaliyyəti ilə bağlı məsələlər də BŞİH səlahiyyətlərindən çıxarılır. Milli Məclis isə ötən gün mediada "Abutalıbovun biznesi" adlandırılan uşaq bağçalarının özəlləşdirilməsi məsələsini gündəmə gətirib. Milli Məclisin Elm və təhsil komitəsinin iclasında bağçaların özəlləşdirilməsin nəzərdə tutan "Məktəbəqədər təhsil haqqında" Qanun layihəsini müzakirəyə göndərib.

2011-ci ildən BŞİH-in səlahiyyətlərinə verilən bağçalardakı rüşvətxorluq və özbaşınalıq halları haqda dəfələrlə yazılıb. Bağçaların özəlləşdirilməsi Abutalıbovun daha bir gəlirli sahəyə nəzarəti itirməsi demək olacaq. Qeyd edək ki, tikinti ilə bağlı sənədləşmənin sadələşdirilməsi ilə bağlı prezidentin imzaladığı son bir neçə sərəncamlar da Abutalıbovun "əl-ayağını" xeyli toparlayıb. Bakı meri indi tikintidə də əvvəlki hökmranlığı qalmayıb.

Ehtimal etmək olar ki, Abutalıbov mer kreslosunda son payızını yaşayır və yaxın aylarda onun şəhər təsərrüfatı idarəçiliyindən birdəfəlik ayrılacağını gözləmək lazımdır.

❑ **"YM"**



# Tullananların bayramı

Zamin HACI
zaminhaci@gmail.com

Söz vaxtına çəkər, keçən ilin oktyabrında Tovuzun kəndlərindən birində orijinal hadisə olmuşdu: oğru evə girib hər yeri ələk-vələk edəndən sonra heç nə tapmadığı üçün ev yiyəsinin ünvanına söyüş dolu məktub yazaraq getmişdi. Bizim 18 oktyabr müstəqillik gününü qeyd eləməyimiz təxminən elə o məktuba bənzəyir. Üstəlik, bu il lap "yubiley təhqiri" oldu - 25 illiyini qutladıq.

Təhqir isə ondadır ki, həmin vaxt müstəqillik aktı deputatxanada səsə qoyulanda bunun əleyhinə olanlar, SSRİ-nin saxlanmasını istəyənlər hamısı yapizm dövründə dövlətdən müxtəlif mükafatlar almışdır. Eləsi var, deputat qoyulub, eləsi var nazir. Sanki bunu qəsdən ediblər - Azərbaycan xalqı ilə məzələnmək üçün. Müstəqillik istəyirdiniz? Alın. Dünənki ağalarınızın müstəqil rəhbərliyi altında yaşayın. Elə bil qrup halında zorlama cinayətinin iştirakçılarını sonradan qızlar yataqxanasına sosial işçi olaraq qəbul edirsən. Müstəqillik əleyhinə səs verənlərdən hətta "İstiqlal" ordeni alanlar da olub! Xalqı bu dərəcədə dolayıblar.

Varlamov soyadlı rus blogger var, Bakıya gəlib gəzmişdi, sonra səfər qeydlərini internetə qoymuşdu. Adam heyrətə gəlib ki, bu necə şəhərdir, səkilər pis gündədir, adamların hərəkəti üçün heç bir rahatlıq yoxdur. Bir cümləsi yadımda qalıb: "Açıq görünür bu şəhəri idarə edənlər heç vaxt onu piyada gəzməyiblər". Məncə, Varlamov Hacıbala Abutalıbovun yalnız fotosuna baxsa, bizim nə kökdə olduğumuzu anlayardı, heç elə yazı yazıb özünü yormazdı. Rəhmətliyin oğlu, nə şəhər, nə səki? Biz ölmüşük, basdıran yoxdur. Hərçənd istəsən dəlini şəhər başçısı qoymaq üzrə dünya humanizm mükafatı ala bilərik, çünki başqa ölkələrdə psixi çatışmazlığı olanlar həkim nəzarətində saxlanır, iynə vurulur, təcrid edilir və sairə. Biz isə azadlıq və hakimiyyət vermişik.

Mən bunu, deyəsən, bir dəfə də yazmışam, təkrar olsun: azərbaycanlıların müstəqillik qazanması amerikalı yazıçı, ədəbiyyat üzrə Nobel ödülü qazanmış Con Steynbek-in "Mirvari" hekayəsinin tam bənzəridir. Orda dənizdən mirvari toplayan (oxu: neft) kasıb bir adamın (oxu: azərbaycanlı) oğlunu əqrəb sancır (oxu: Qarabağ problemi). Adam sonra çox böyük mirvari tapır (oxu: müstəqillik), ancaq bu mirvari ona daha çox bədbəxtlik gətirir. Azərbaycan dilinə tərcümə edilib, məsləhət görərdim hər kəs oxusun, özümüzü orda görüb heyrətlənsin.

Əli İnsanovu türmədə türməyə saldılar. Müxalifəti isə dinc dayananda da polisə aparırlar, deyirlər niyə dinc dayanmısınız, nəsə şübhəlidir. Bakını yağışda su basır, mənim səmərəli bir təklifim var: pambıqdan bir şey çıxan deyil, artıq əziyyətdir, gəlin ondansa Bakımızı qaz-ördək təsərrüfatına çevirək, bu qədər yağış suyu, gölməçələr havayı itib getməsin. Hər küçədəki göldə 10 qaz saxlasaq, təkcə o qazların ətiylə 100 il dolanarıq. Özü də dadlı olur, bu haqda ekspert rəyi də var: "Yeməmisən qaz ətini, görməmisən ləzzətini". Qazın tükü isə pambığa alternativdir. Doldur yastığa, sat. Mentalitetimiz də qaz saxlamağa güclü dəstək verir, bizdə cəsur adama həmişə "qaz kimidir, hamı tutur yolur" deyirlər.

Yaxud Yasamal və Əhmədlinin yamaclarında niyə düyü əkməyək? Çəltik çox su sevən bitkidir, su da vardır.

Xalqımızın gölməçələrdən, balaca küçə çaylarından hoppanması isə idmana dövlət qayğısıdır, vaxt gələcək, bu adamlar uzunluğa tullanma üzrə olimpiya medalı qazanıb bayrağımızı ucaldacaq, himnimizi oxutduracaqlar. Siz bəlkə buna şit zarafat kimi yanaşırsınız, ancaq mən burda elmi əsaslandırılmış fikir yazıram. Örnək üçün, Afrika xalqlarının qaçış idmanında böyük uğurları kimsəyə sirr deyil. Hər il marafon və sprinter yarışlarında, müxtəlif qaçış məsafələri üzrə çoxlu afrikalı və ya Afrika mənşəli çempionlar görürük. Azərbaycan özü bir neçə efiopiyalını "milliləşdirib" qaçış komandamıza qatmışdır, bunlardan Hayle müəllimə hətta İbrahimov soyadı vermişik, halal olsun bizə!

Mövzudan uzağa qaçmayaq, bu afrikalıların qaçışda böyük uğurları əslində təkamül nəzəriyyəsinin isbatıdır. Bu uğurlar bir-iki günə qazanılmayıb, min illərin işidir. Afrika isti yerdir, orda ovçular heyvanları tarixən qovub əldən salıb ovlayıblar. Heyvanlarda tərləmə orqanları yoxdur, o üzdən heyvanlar çox qaçanda bədən qızır, istidən partlayıb ölürlər. (Atı dayanmadan çox çapanda da belə olur). İnsanlar isə tərləyir, istilik bu yolla bədəndən çıxır. Beləcə, həmin ovçuların bu tarixi bacarığı indi stadionlarda özünü göstərir.

Hesablamalarıma görə, Bakıya belə yağışlar min il yağsa 3-cü minilliyin axırlarına dünyada ən yaxşı tullanan azərbaycanlılar olacaqdır. O zaman bəlkə "Müstəqillik bayramınız qutlu olsun" yerinə insanlar bir-birinə "Tullan burdan!" deyərək təbrik edəcəkdir.

# İlham Əliyev: "Dağlıq Qarabağ muxtar respublika ola bilər"

**Azərbaycan prezidenti İlham Əliyevin "Bağlı qapılar arxasında Dağlıq Qarabağı tanımaqla bağlı bizə təzyiqlər edilir" açıqlaması ermeni tərəfində müəyyən eyforiya yaratsa da, bu, kiçik və keçici bir sevinc oldu. Çünki düşmən bir daha anladı və əmin oldu ki, məsələdə əsas söz, hər halda, Bakıya məxsusdur, İrəvana yox. Yəni istənilən həll modeli Azərbaycanın razılığı alınmadan mümkün olmayacaq.**




# Prezidentdən İrəvana barıt qoxulu sülh ismarışı

"Ərazi bütövlüyümüz məsələsində heç vaxt güzəşt olmayacaq" deyən ölkə başçısı hərb variantının da daima masa üzərində olduğuna diqqət çəkdi; Azərbaycan rəhbərinin son açıqlamaları həmsədrlərə də xəbərdarlıq mesajıdır, çünki...

Azərbaycanın mövqeyi isə bəllidir. Onu ölkə başçısı İlham Əliyev iki gün öncə, Müstəqillik Günü ilə bağlı etdiyi çıxışında, ardınca isə Rusiyanın "Sputnik" agentliyinə verdiyi müsahibəsində bir daha bəyan edib. Öncə çıxış barədə.

*****

"Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimiz dəyişməz olaraq qalır". Bu sözləri prezident dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbul mərasimində çıxışı zamanı deyib. Dövlət başçısı bildirib ki, belə bir mövqe hazırda daha çox beynəlxalq dəstək qazanır: "Artıq dünya ictimaiyyəti bilir ki, reallıq nədən ibarətdir. Yəni bizim torpaqlarımız işğal altındadır. BMT Təhlükəsizlik Şurasının, digər təşkilatların qətnamələri icra edilmir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq əsasında həll edilməsi bizim prinsipial mövqeyimizdir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir".

**Prezident çıxışında daha sonra diqqəti münaqişənin mümkün həll yollarına yönəldib və hərb variantını da istisna etməyib.** "Biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm DİGƏR yolları *(seçdirmə bizim-dir-red.)*. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edir ki, Azərbaycan ordusu dünya miqyasında güclü ordular sırasındadır... Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan ordusunun gücünü bir daha göstərdi. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin".

"Razılaşa bilsək, Dağlıq Qarabağ muxtar respublika ola bilər". Bu sözləri isə ölkə başçısı "Sputnik" agentliyinə müsahibəsində deyib. Prezidentin sözlərinə görə, Dağlıq Qarabağla bağlı qarşılıqlı kompromis mövcuddur və region muxtar respublika ola bilər. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilərin azad edilməsi şərti ilə konfliktin həllini real saydığını söyləyib (APA).

**Dövlət başçısına görə, Dağlıq Qarabağdakı əhalinin təhlükəsizliyi, həyat və fəaliyyəti, özünüidarəçiliyinin təmin olunması, Azərbaycan tərəfindən müxtəlif investisiya layihələrinin həyata keçirilməsi, keçmiş DQMV ətrafındakı ərazilərin azad edilməsi nəticəsində iki xalqın dinc, sülh şəraitində birgə yaşayışı yolu ilə məqbul kompromislər mümkündür:** "Münaqişənin həllini biz belə görürük. Bu, hazırda üzərində işlədiyimiz və vasitəçilərin irəli sürdüyü təkliflərlə səsləşir. Lakin məsələnin həllini tapmamasının əsas səbəbi odur ki, Ermənistan 24 ildir, Minsk Qrupu yaranandan bəri danışıqlar prosesindəki ən kiçik irəliləyişin də qarşısını müxtəlif yollarla alır".

**Prezident ardınca deyib:** "Bizim mövqeyimiz ondan ibarətdir ki, insanlar harada yaşayırdısa, orada da yaşamalıdır. Çünki onlar orda çoxdan yaşayırlar: erməni əhali 200 il, azərbaycanlılar daha çox. Lakin məsələ təkcə bunda deyil. Məsələn, Şuşada əhalinin 95 faizi azərbaycanlılar idi, onların hamısı qovulub, evləri ya ələ keçirilib, ya da dağıdılıb. Buna son qoymaq lazımdır. Erməni əhali Dağlıq Qarabağda yaşayırdı, qoy yaşasın, biz bunun əleyhinə deyilik. Ermənistan bu münaqişədən nə qazandı? Bəli, milyonlarla azərbaycanlıya iztirab çəkdirdi, lakin əvəzində özləri xoşbəxt oldular? Bəlkə daha çox inkişaf etdilər, daha təhlükəsiz şəraitdə yaşadılar? Əlbəttə ki, yox".

**Ölkə başçısı xüsusi vurğulayıb ki, Azərbaycanla münasibətlər normallaşmadan regionda inkişaf ola bilməz:** "Onlar (ermənilər-red.) daim təzyiq altında yaşayacaqlar ki, birdən nəsə baş verdi. Biz sülh istəyirik və mövqeyimiz kifayət qədər konstruktivdir, lakin biz öz torpaqlarımızı geri istəyirik. Ermənistan isə başqasının ərazilərini geri verməndən sülh istəyir. Fərq bundadır".

**Prezident bir daha qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü məsələsində kompromis olmayacaq:** "Biz Dağlıq Qarabağa müstəqillik verilməsinə heç vaxt razı olmayacağıq və erməni tərəfi bunu çox gözəl bilir. Lakin yerli özünüidarəçilik məsələsində güzəşt mümkündür. Əgər razılığa gəlsək, bu özünüidarə Dağlıq Qarabağ Muxtar Respublikası şəklində ola bilər. Bundan artıq kompromisə gedə bilmərik".

*****

Beləliklə, ölkə başçısı bir daha işğalçı tərəfi, İrəvanı problemin dinc yolla çözümünə çağırıb. Eyni zamanda ilk dəfə olaraq ən optimal, hamını qane edəcək həll formulunu açıq şəkildə bəyan edib, Dağlıq Qarabağdakı erməni əhalisinin təhlükəsizliyinə, rifahına dövlətimiz adından tam təminat vəd edib, ən əsası, Azərbaycanın heç vaxt adlaya bilməyəcəyi "qırmızı xətti göstərib" - muxtar respublika. Əks halda, Azərbaycanın radikal üsula əl atmaq zorunda qalacağı haqda da İrəvana aydın mesaj göndərib, düşmənə xəbərdarlıq edib. Bundan artıq nə deyilməlidir ki?

Bu, həm də Minsk Qrupu həmsədrlərinə aydın bir ismarışdır ki, nəticəsiz vasitəçilik fəaliyyətinə son qoyub real işlə məşğul olsunlar, Azərbaycanın hara kimi güzəştə gedə biləcəyinin fərqinə varsınlar, qeyri-real həll modellərini kənara atsınlar. Əks təqdirdə, Azərbaycan prezidentinin də xəbərdarlıq etdiyi kimi, münaqişənin "digər həll yolları" işə düşəcək və buna görə məsuliyyəti vasitəçi dövlətlər də bölüşməli olacaq. Çünki Azərbaycan işğal rejiminin sonsuzadək uzanması ilə heç vaxt barışmayacaq.

Ölkə başçısının son açıqlamalarındakı mühüm mesajlardan biri də elə budur. Söz indi qarşı tərəfin, həmsədrlərindir. Top artıq onların tərəfindədir...

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016

# Rusiya və "İsgəndər"in "buynuzu"...

## Şimal qonşumuzun işğalçı Ermənistana bahalı hədiyyəsinə laqeyd qalan Qərb artıq narahatdır; rəsmi Bakının Kremllə ehtiyatlı davranmasına ekspert şərhi



**Sentyabrın 21-də İrəvanda keçirilən hərbi paradda nümayiş olunan "İsgəndər" raket komplekslərini ABŞ-ın nüfuzlu "Startfor" analitik təşkilatı "balansı qoruyan" hadisə kimi dəyərləndirmişdi. İşğalçı Ermənistanın bu təhlükəli silaha malik olmasını sanki qanunauyğunluq kimi qarşılayan Qərb bu gün həmin komplekslərin Kalininqrad vilayətində yerləşdirilməsindən ciddi şəkildə təşvişə düşüb.**

Düzdür, bəzi ekspertlər Ermənistandakı raketlərin də təkcə Azərbaycana qarşı deyil, həm də NATO-ya qarşı yönəldiyini deyirlər. Ancaq NATO ölkələri hələ ki bu məsələyə reaksiya verməyib. Belə xəbərlər var ki, Ermənistana aid olduğu deyilən "İsgəndər-M" kompleksləri əslində Rusiyaya məxsusdur və onlar Ermənistan ərazisində yerləşdirib. İstənilən halda bu kompekslərin Ermənistanda yerləşdirilməsinə dair xəbərlər daha çox Azərbaycanda narahatlıq doğurub.

Bu arada "Rossiya-24" kanalı tanınmış rus jurnalist Arkadi Mamontovun "İsgəndər" raketləri haqda araşdırma filmini təqdim edib. Filmdə iddia olunur ki, "İsgəndər-M"in qarşısının alınması mümkün deyil, çünki onu atıldığı andan müşahidə etmək də mümkünsüzdür.

**Hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, "İsgəndər" operativ-taktiki raketlərinin ən müasir silahlar sırasında olmasını heç kim danmır:** "O da həqiqətdir ki, bu raketlər son illər Rusiya hərbi sənaye kompleksinin ortalığa çıxartdığı ən yaxşı, son nəsil silahlardan biridir. Amma düşünmək ki, bu raketlərə qarşı hər hansı adekvat cavab zərbəsi endirmək mümkünsüzdür, bu, sadəcə, blef və həqiqətdən çox uzaq olan yanaşmadır. O raketləri izləmək, kəşfiyyat və hücum avadanlıqları ilə aşkarlamaq da problem deyil, hətta onları zərərsizləşdirmək də mümkündür. İndi siz bir anlığa təsəvvür edin ki, bu imkanlar mövcud olmasaydı, Rusiya kimi bir militarist dövlət çoxlarına "kəllə atmaqdan" çəkinməzdi".

**Ü.Cəfərov qeyd etdi ki, ruslar öz silahlarının müsbət və mənfi cəhətlərini gözəl bilirlər:** "Tanınmış rus araşdırmaçı telejurnalisti, Kremlə yaxınlığı heç kimdə şübhə doğurmayan Arkadiy Mamontovun da birdən-birə baş çəkdiyi raket-artilleriya qoşunlarının hərbi hissəsi də təsadüfən seçilməmişdi. Bu, daha çox informasiya müharibəsinə hesablanmış və rus silahının "əvəzolunmazlığını" öz əzəli rəqiblərinə, xüsusən də NATO-ya göstərmək üçün bir jest kimi başa düşülməlidir. Və nəzərə alaq ki, son vaxtlar Rusiya siyasətinə qarşı böyük güclərin səsləndirdikləri kəskin bəyanatlar da rəsmi Moskvanı çox narahat edir. Ona görə də onlar son model hesab etdikləri "İsgəndər-M" operativ-taktiki raketlərini də geninə-boluna reklam etməklə məşğuldurlar. Bədnam qonşularımız Ermənistan da məsələnin məğzini başa düşəndən sonra İrəvanda keçirdikləri hərbi paraddan sonra artıq eyforiyadan bir az uzaqlaşıblar. Bir sözlə, "İsgəndər-M" raketləri də nə qədər müasir və ağır fəsadlar törədə bilən silahlardan olsa da, ondan çəkinmək, qorxmaq lazım deyil. Ona qarşı da çox modern və güclü HHQ və HHM sistemləri var. O cümlədən Azərbaycanın o silahı zərərsizləşdirmək gücündə olan sistemləri mövcuddur".

Qeyd edək ki, "İsgəndər" operativ-taktiki raket sistemləri Rusiyadakı Kolomna maşınqayırma konstruktor bürosunda hazırlanıb və ilk dəfə ictimaiyyətə 1999-cu ildə təqdim edilib *(virtualaz.org)*. Bu raket sistemlərinin adı tarixdə iz qoymuş məşhur sərkərdə Makedoniyalı İsgəndərin adından götürülüb. Makedoniyalı İsgəndər iki buynuzu olan dəbilqə taxdığından, tarixdə onun adı həm də ikibuynuzlu İsgəndər kimi qalıb. "İsgəndər" raket kompleksinin də tərkibində iki raket olduğu üçün onu məhz bu cür adlandırıblar.

***

Rəsmi Bakının "İsgəndər" raketlərinə görə Rusiyadan izahat istəməməsi də son günlər müzakirə mövzularındandır. Ancaq XİN-in bununla bağlı ehtiyatlılığını məntiqli sayanlar da var. Hesab olunur ki, Rusiyanı qıcıqlandırmaq təhlükəlidir.

**Politoloq Elxan Şahinoğlu rəsmi Bakının şimal qonşumuzun Azərbaycan əleyhinə davranışlarına sükutlu reaksiyasını təbii sayır:** "Rusiya hakimiyyəti tənqidi xoşlamır. Ona görə də rəsmi Bakı düşünür ki, Rusiyanı Ermənistanı silahlandırdığına görə tənqid etsə, bu, Kremldə neqativ qarşılanacaq. Rəsmi Bakı isə Kremllə münasibətləri gərginləşdirmək istəmir. Ancaq Moskvaya narahatlığımızı ifadə edən mesajlarımızı göndərməsək, yanlış olaraq düşünəcəklər ki, Azərbaycan mövcud duruma etiraz etmir".

Bu arada Rusiyanın hətta nüvə müharibəsinə hazırlıqları həyata keçirdiyi məlum olub. Belə ki, Rusiyanın Sankt-Peterburq şəhərində "Zenit-Arena" stadionunun tikintisini aparan menecerlərə Fövqəladə Hallar Nazirliyindən xəbərdarlıq gəlib ki, dərhal layihədə düzəliş edilsin və müharibə zamanı insanların sığınması üçün bunker inşa edilsin. Digər tərəfdən, bu günlərdə Rusiya prezidenti Vladimir Putin hərbi təyinatlı plutonium ehtiyatlarının ləğvinə dair ABŞ-la imzalanmış müqavilədən çıxmaq barədə qərar verib. Bu, Birləşmiş Ştatlarla Rusiya arasında gərginliyin getdikcə artdığı, Rusiyanın "nüvə dəyənəyi"ni getdikcə daha tez-tez yellədiyi bir vaxtda baş verir. "Bu, Moskva ilə Vaşinqton arasında son onilliklər ərzində ən ciddi gərginlikdir"-Rusiya İctimai Palatasının üzvü Sergey Markov deyir. "Müharibə hətta ABŞ-dakı noyabr seçkilərinə qədər başlaya bilər"- o əlavə edib. Markov bildirib ki, o, şəxsən özü potensial hərbi böhrana hazırlaşmaq üçün 200 banka pörtlədilmiş mal əti ehtiyatı yığmağı planlaşdırır. "Hamıya da bunu məsləhət görürəm" Markov əlavə edib.

Rusiyanın Qərb ölkələri ilə sərhədlərinə də "İsgəndər-M" raketlərini yerləşdirməsi, üstəlik, nüvə müharibəsi tədarükünə başlaması olduqca təhlükəli vəziyyətdən xəbər verir. İqtisadi cəhətdən ciddi sanksiyalarla üz-üzə qalan şimal qonşumuzun bu aqressiyasının səbəbi nədir?

**Elxan Şahinoğluna görə, səbəb sadədir:** "Rusiya prezidenti Putin Amerikanın hegemonluğunu qəbul etmir, ölkəsinin də böyük güc olduğunu və Vaşinqtonun bununla hesablaşmasını istəyir". Ekspertə görə, məhz bunun nəticəsidir ki, Rusiya 2008-ci ildə Gürcüstanla müharibə edərək Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanıdı, Krımı işğal etdi, Ukraynanı parçaladı və Suriyaya müdaxilə etdi. "Rusiyanın Ermənistana ötürdüyü raketlər də bu siyasətin tərkib hissəsidir. Kreml "İsgəndər" raketlərini işğalçıya ötürərkən Azərbaycanın həssasiyyətini qulaqardına vurdu" - E.Şahinoğlu bildirdi.

**"Rusiyanın Suriya ilə bağlı siyasətinə tamamilə bəraət qazandırmaq olar. Rusiya həmişə bildirir ki, ekstremistlərə, terrorçulara, radikallara qarşı səyləri birləşdirmək lazımdır". Bu fikirləri isə Azərbaycan prezidenti İlham Əliyev Rusiyanın "Sputnik agentliyinə müsahibəsində deyib (modern.az). Dövlət başçısı bildirib ki, terrorçular arasında yaxşı və pis deyə bölgü aparmaq yanlışdır. Onun sözlərinə görə, tarix dəfələrlə belə yanaşmanın bumeranq effekti yaradacağını sübut edib. Prezident Avrasiya İttifaqı ilə bağlı suala da maraqlı reaksiya verib.** "Azərbaycan Avrasiya məkanındakı prosesləri izləyir. Avrasiya İttifaqına inteqrasiya olmaq üçün iqtisadi, sosial və siyasi motivasiya olmalıdır",- deyə ölkə başçısı qeyd edib. "Gələcəkdə Azərbaycanın Avrasiya İttifaqına üzv olmasını istisna etmək olmaz". Azərbaycan prezidenti Avrasiya məkanındakı prosesləri fəallıqla izlədiklərini deyib. "Bu gün Avrasiya İttifaqına üzv ölkələrlə iqtisadi, həmçinin, siyasi əməkdaşlıq kifayət qədər möhkəmdir. Təbii ki, əgər İttifaq cəldedici olarsa, ora bir çox ölkələr yönələcək".

**Ölkə başçısının bu mövqeyi balanslı siyasətin məntiqi davamı kimi dəyərləndirilir.**

❑ **Cavid TURAN**

# "Cəmiyyətə bu cür çağırışlar edilir ki..."

## Dövlət başçısının AXC-Müsavat hakimiyyəti barədə kifayət qədər sərt mövqeyinə səbəb nədir?

**Prezident İlham Əliyev müstəqilliyimizin 25-ci ildönümü ilə bağlı təşkil olunmuş rəsmi qəbuldakı çıxışı zamanı AXC-Müsavat hakimiyyəti barədə kifayət qədər sərt danışıb. Ölkə başçısı çıxışının bir hissəsini 1992-93-cü illərdəki Elçibəy hakimiyyəti dövrünə həsr edib.**

Müstəqilliyimizin ilk illərini müxtəlif dövrlərə bölən İ.Əliyev bildirib ki, həmin illərdə Heydər Əliyev hakimiyyətdə olsaydı, bu qədər böyük itkilərlə üzləşməzdik: "1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC-Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürürdü. İqtisadi böhran yaşanırdı, sənaye demək olar ki, iflic vəziyyətə düşmüşdü. O vaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. O vaxt korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Ölkəmizdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi, insanları incidirdi. Baxmayaraq ki, Ermənistanla qanlı döyüşlər gedirdi AXC-Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı.

Cəmi bir il ərzində AXC-Müsavat qruplaşmasının yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın".



**Qabil Hüseynli:**
"İndiki müxalifətin həmin dövrdə yol verdiyi səhvlər..."

**Ekspertlər ölkə prezidentinin Elçibəy hakimiyyəti dövründə iqtidarda, hazırda isə müxalifətdə təmsil olunan şəxsləri bu şəkildə hədəfə almasını müxtəlif səbəblərlə izah edirlər.**

**Politoloq Qabil Hüseynli İ.Əliyevin müstəqillik günündə bu qədər sərt danışmasının bir sıra səbəblərinin olduğunu qeyd etdi:** "Düşünürəm ki, müstəqillik gününün 25 illiyində milli birlik, həmrəyliyə aparan yolların açıb göstərilməsi vacib idi. Görünür, indiki müxalifətin həmin dövrdə yol verdiyi səhvlər, xüsusilə AXC hakimiyyəti dövründə edilən qüsurlar ölkənin həyatında dərin izlər buraxıb. Bu səbəbdən də prezident həmin dövrə çıxışında geniş yer ayırıb. Arzu edərdim ki, 18 oktyabr ölkədə bayram kimi qeyd olunan günlər sırasına daxil olsun. Bununla 18 oktyabrın tarixi əhəmiyyəti daha da artar. İstərdim ki, bu günlərdə milli birlik, barışıq çağırışları əsas olsun. Amma təəssüf ki, belə çağırışları mümkünsüz edən amillər var. Bu da yəqin ki, AXC-Müsavat hakimiyyəti dövründə verilən qüsurlarla bağlıdır. Bu, ölkə başçısının xatirində dərin izlər buraxıb. Müstəqilliyimizin yaradılmasında və möhkəmləndirilməsində böyük əməyi olan hər kəsə, xüsusilə ümummilli liderimiz Heydər Əliyevin apardığı çoxtərəfli fəaliyyətə xüsusi minnətdar olmalıyıq. Bu bayram iş günü olmayan bayramlar sırasına daxil edilməlidir".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, bu cür çıxışlar ölkədəki böhranla bağlıdır:** "Müstəqilliyinin 25 illiyini Azərbaycan dərin böhran içərisində keçirir. Bu böhranın səbəbkarları indiki hakimiyyətdir. Bunların AXC-Müsavat hakimiyyətinə heç bir dəxli yoxdur. Getdikcə hakimiyyət başa düşür ki, siyasi aktivlik artacaq. Bu baxımdan, iqtidar islahatlara getməyə məcburdur. İslahatlara getdikdə isə cəmiyyətdə aktivlik nəinki zəifləyəcək, əksinə, güclənəcək. Artıq hakimiyyət bunu dərk edir. Ona görə də bu cür tənqidlər var. Bir də cəmiyyəti sanki çaşdırmaq istəyirlər ki, indiki böhran o vaxtdan gəlib, böhran səbəbkarları həmin müxalif qüvvələrdir. Sanki cəmiyyətə bu cür çağırışlar edilir ki, həmin siyasi qüvvələrin arxasınca getməyin".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016




# Hökuməti batıran payız...

## Bütün kommunal sistem çöküb, məmurlar isə “bu, təbiidir” deyə özünü haqlı çıxarmağa çalışır

**Oktyabrın 16-17-də aramsız yağan yağışlar Bakını da, Bakı sakinlərini də pis duruma salıb. Yollarda yaranan göllər, suda maşınların batıb qalması ilə yanaşı, əksər ərazilərdə mənzillərə normal təzyiqlə qaz verilməməsi, işıq və su problemi də pik həddə çatıb. Sanki paytaxt qış mövsümünün başlanmasına hələ bir ay qalmış fəlakətə təslim olub. Və indi bu fəlakətin izləri Bakı sakinlərinin həyatında anbaan özünü göstərir.**

Oktyabrın 17-də Xocasən qəsəbə sakinləri Bakı-Xocahəsən yolunu kəsməyə cəhd ediblər. Hadisə yerinə gələn Post Patrul Xidmətinin əməkdaşları sakinlərin yolu kəsmələrinə mane olub. Etiraz aksiyasının iştirakçıları deyib ki, yağışlı havada onları bir araya gətirən problemləridir, evlərinə qaz gəlmir. Hadisə yerinə gələn Binəqədi rayon Qaz İstismarı İdarəsinin nümayəndəsi də bildirib ki, yaxın vaxtlarda qaz veriləcək.

### İbrahim Kərbalayev: “Problem kütləvi deyildi”

**Oktyabrın 16-da isə başda Binəqədi olmaqla, Xətai, Nərimanov, Sabunçu kimi əksər rayonlara, eləcə də bölgələrə təbii qazın verilməsində problem yaranıb. “Azəriqaz” İB-in mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, ayın 16-da bəzi ərazilərdə qazın təzyiqinin azalması xəbərləri həqiqəti əks etdirir. Onun dediyinə görə, havalar qəfil soyuduqda qaz təchizatında təhlükəsizlik qaydaları qorunmaq şərtilə qazın təzyiqi artırılır:** “Oktyabrın 15-də respublika ərazisinə təbii qazın verilişi 9 milyon 961 min kub metr olubsa, oktyabrın 16-da 11 milyon 154 min kub metr təşkil edib. Yəni 1 milyon 193 min kub metr artım olub. Ölkə ərazisinə verilən qazın həcmi artırılıb, sakinlər də gün keçdikcə bunu hiss edəcəklər”.

**İ.Kərbalayevin dediyinə görə, qazın verilişi ilə bağlı heç bir məhdudiyyət olmayacaq. Təbii qaza olan tələbat artdıqca, qazın verilişi də artırılacaq:** “Qazla bağlı yaranan çatışmazlıqlar təbii idi, çünki havalar qəfil soyuyub. Amma o problemlərin əksəriyyəti əməkdaşlarımız tərəfindən öz həllini tapıb. Bəzi tənzimləmə problemi qalıb ki, onu da həll etmişik. Problem kütləvi deyildi. Sadəcə, təbii qaza olan tələbat birdən-birə artdığı üçün belə mənzərə yaranmışdı. Texniki təhlükəsizlik baxımından qazı birdən-birə normadan artıq yükləmək olmur. Əksər ərazilərdə qazın səviyyəsi yüksək, bəzilərində aşağı olub. Hazırda yeni qaz xətləri, qaz tənzimləyici qurğular quraşdırılır, istismara yararsız qaz xətləri yeniləri ilə əvəzlənir və problem 1 gün ərzində tam həllini tapacaq".

**Yağışın məhv etdiyi, kanalizasiya sisteminin olmaması ucbatından gölə dönən yolların yaranma səbəbi nədir? “Azəravtoyol” ASC-nin mətbuat katibliyinin rəhbəri Anar Nəcəfli isə mediaya açıqlamasında deyib ki, normadan artıq yağıntı olduqda Bakı şəhərində müəyyən bölgələrdə problemlər olur. A. Nəcəfli vurğulayıb ki,**




**problem yaranan ərazilərdə də yağış-kanalizasiya sistemi, kollektorlar var:** “Sadəcə, kollektorların gücü çatmır və nəticədə su yenidən yola çıxır. Əksər ərazilərdə problemin səbəbi budur. Ziya Bünyadov prospektində, Xətai, Neftçilər prospektində, Biləcərinin mərkəzi yolunda və Binəqədi şossesində olan problem ondan ibarətdir ki, su nasosları suyu ərazidən uzaqlaşdıra bilmir”.

### Bakı küçələrinin 16-17 faizində yağış-kanalizasiya sistemi var

**Yollarda suyun çəkilməsi ilə bağlı işlərə “Azərsu” ASC və Fövqəladə Hallar Nazirliyinin (FHN) nəzarət etdiyini bildirən qurum sözçüsü əlavə edib ki, “Azəravtoyol” ASC-nin əməkdaşları da onlara yardım göstərirlər:** “Bizə aid olan yağış barmaqlıqlarıdır, onlarda heç bir problem müşahidə olunmur. Bakı küçələrinin cəmi 16-17 faizində yağış-kanalizasiya sistemi var. Ancaq mövcud problemin yaranmasında yağış-kanalizasiya sisteminin olub-olmaması rol oynamır. "Azəravtoyol" ASC-nin balansında olan küçə və prospektlərdə mövcud olan yağış-kanalizasiya sistemində heç bir problem yoxdur". (APA)

### Kanalizasiyaya xərclənən milyonlar, milyardlar...

“Yeni Müsavat” isə rəqəmləri yada salmağın tərəfdarıdır.

Ümumilikdə 2003-2013-cü illərdə su təchizatı və kanalizasiya sektoruna müxtəlif mənbələr hesabına 2,8 milyard manatdan çox vəsait ayrılıb. Bunun 1,8 milyardı dövlət büdcəsinin, 779 milyon manatı Dövlət Neft Fondunun, 196 milyon manatı isə xarici maliyyə qurumlarının payına düşür. Və haqlı olaraq da bu sual ortaya çıxır: hardadır (kimin cibindədir) o milyonlar, milyardlar? “Kanalizasiyanın haqqına” kimlər, hansı məmurlar, necə girib?

Yollar bərbad durumdadırsa, nəqliyyatın hərəkərindən də xoş heç nə gözləmək olmaz. Təsadüfi deyil ki, oktyabrın 17-də Bakının Ziya Bünyadov prospekti, Binəqədi qəsəbəsi, Babək prospekti, Tbilisi prospektində nəqliyyatın hərəkəti iflic vəziyyətə düşmüşdü. Sosial şəbəkədə paylaşılan tıxac videoları, fotoları yollarda zərərçəkmişə dönən sürücülərin gerçək tablosu idi. Şikayətçi sürücülərin dediyi bir söz vardı: “Bir yol polisi gəlsəydi, bu yolları açardı...”

Maraqlıdır ki, həmin saatlarda Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin internet saytı da iflic vəziyyətdə idi. Çünki saytda və mobil tətbiqetmədə havanın günəşli, yolların isə tıxacsız olduğu göstərilmişdi. İşıqforlar da normal işləmədi, xaotik hərəkət qəzalara səbəb oldu.

**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov** da bildirdi ki, yol və meteoroloji şərait nəzərə alınmadığı üçün Bakıda 8 yol qəza hadisəsi baş verib. DYP rəsmisi eyni zamanda sürücülərə şəxsi avtomobillərə yox, ictimai nəqliyyata üstünlük verməyi məsləhət gördü. Şəxsi avtomobilindən istifadə edənləri isə su gölməçələri üzərindən keçərkən sürət həddini minimuma endirməyi, avtomobillər arasındakı ara məsafəsinə diqqət etməyə, avtomobilləri mövsümü təkərlərə keçirməyə çağırdı.

“Yeni Müsavat” xatırladır ki, oktyabrın 17-də yollardakı gölməçələr ucbatından evakuator xidmətindən istifadə edənlərin də sayı çox olub. Və bununla bağlı Bakı yollarında evakuator biznesi yaşanıb. Belə ki, vətəndaşlardan biri Bakıda evakuator sürücülərinin yağışlı havada yaranmış gölməçələrdən keçmək istəyən sürücülərdən 10 manat alması barədə məlumat və video paylaşıb.

İstilik problemi özünü evlərdə olduğu kimi, Bakı məktəblərində də göstərib. Dərsdən qayıdan uşaqlarınızın “bütün gün dərsdə gödəkçə ilə oturduq”, “isinmək üçün müəllimimiz qaçmağa icazə verdi” sözlərini xatırladızmı?

“Bakı məktəblərində istilik sistemi ilə bağlı problemlərin aradan qaldırılması üçün Təhsil Nazirliyinə təkliflər göndərilib”. Bunu jurnalistlərə açıqlamasında Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva deyib. Onun sözlərinə görə, Bakıda hələ də istilik sistemi ilə bağlı problemi olan məktəblər var.

Qurumun ictimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov isə “Yeni Müsavat”ın yazılı sorğusuna cavab olaraq bildirib ki, BŞTİ-nin tabeliyində olan məktəblərdə davamiyyətlə bağlı heç bir ciddi problem qeydə alınmayıb. Məktəblərin soyuq olması ilə bağlı suala cavabda isə B.Məmmədov deyib ki, ümumitəhsil müəssisələrinin istiliklə təchiz edilməsi hər il müvafiq olaraq noyabr ayının 15- i tarixindən başlayır və aprel ayının 15-i tarixinə qədər davam edir. Havaların soyuq keçməsi ilə əlaqədar zərurət yaranacağı təqdirdə, müvafiq qərardan sonra təhsil müəssisələrinin vaxtından əvvəl istiliklə təmin edilməsinə başlanılması mümkündür.

### Vahid Əhmədov: “Milyardlarla manat pul xərcləməsək, yaranan problemi də başa düşərdik”

**Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov isə son iki günlük yağış fəlakətinin paytaxtın həyatına vurduğu zərbələrdən danışdı. “Yeni Müsavat”a açıqlamasında V.Əhmədov dedi ki, son illər Azərbaycanda infrastruktur layihələrinə milyonlarla vəsait xərclənib:** “Milyardlarla vəsaiti xərcləyib, bunu etməsək, yaranan problemi də başa düşərdik. Amma 2003-dən bu yana qaz, su, kanalizasiya ilə bağlı nə qədər vəsait xərclənib. Ən az şikayət olunan sahə işıqdır”.

**V.Əhmədov dedi ki, özünü daha çox göstərən problem kanalizasiya ilə bağlı olub:** “Kanalizasiya sistemi sovet dövründən çəkilib və köhnəlməsi başadüşüləndir. Hamısını birdən-birə dəyişmək mümkün deyil. Qışa hazırlığa hökumət baxır. İstər rayon, istər şəhər icra hakimiyyəti rəhbərləri qışa hazırlıqla bağlı bütün hazırlıqları görməlidir. Hər bir icra başçısı buna maraqlı olmalıdır ki, onun rayonunda bu adını çəkdiyimiz problemlər olmasın”.

### Bəxtiyar Sadıqov: “Yağış iri damcılarla, elə həsrətlə yağır ki, sanki müstəqillik günündə...”

Zaman-zaman ölkənin müəyyən problemləri ilə bağlı silsilə tənqid yazıları ilə çıxış edən “Azərbaycan” qəzetində isə bu gün hər hansı məqaləyə rast gəlmədik. Əvəzində isə “Müstəqil Azərbaycanın sosial rifah strategiyası: etibarlı təminat və modernləşməni hədəfləyən inkişaf paradiqması”, “Ölkənin meliorasiya və su təsərrüfatı sistemi yenidən qurulmuşdur” başlıqlı yazılar yer almışdı. Qəzetin baş redaktoru Bəxtiyar Sadıqovdan bu mənzərənin səbəbini soruşduq: problemlər bitib, ya artıq problemlərdən yazmağa qadağa var?

**B.Sadıqov dedi ki, sözügedən mənzərənin yaranmasının üç əsas səbəbi var. Müsahibimizin sözlərinə görə, bunun əsas səbəbi ölkədə müstəqillik gününün qeyd edilməsidir:** “Dünən təmtəraqlı tədbir keçirildi, müstəqilliyin əzəməti göstərildi. Biz də uzun zamandır ki, müstəqillik gününə hazırlaşırdıq. Bütün sahələr üzrə materiallar verdik. Əgər müstəqillikdən danışırsa, fəlakətdən danışmaq yersizdir. Yubiley qeyd olunanda tənqid vermirik. İnsan bir şeydən danışar da. 25 ilin uğurlarından danışa-danışa o biri məsələni də ora qatmaq qəzetçilik baxımından doğru deyil. Digər tərəfdən, son 20 ildir ki, Azərbaycana və Bakıya bu qədər sürəkli, həcmli yağış yağmayıb. Yağış iri damcılarla, elə həsrətlə yağır ki, sanki müstəqillik günündə Azərbaycana qovuşmağa çalışır. Öz nuru ilə bizi təbrik edir. Bu qədər fəsad törətməsi normaldır. Bakı çay kənarında yerləşsəydi, qayıqlarla gəzərdik. Bu problemin bir kökü də ondadır ki, yeni yollar salınanda, küçələr genişlənəndə yağış sularının axması üçün yer qoyulmayıb. Cəmi 17 faizində yağış sularının axması üçün yer qoyulub. O qədər tənqid eləmişik ki, xeyri yoxdur. Yazırıq, deyirlər ki, yağışötürücü qurğular yoxdur. Tənqidə o qədər əhəmiyyət vermirlər ki, tənqidi hörmətdən salırlar. Bu üç məqama görə qəzet yağış problemindən yazmadı”.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Buraxılan sülh şansı, gündəmə qayıdan savaş riski

## Ekspertə görə, Rusiya-Türkiyə əlaqələrinin istiləşməsi konfliktin çözümündə stimul olacaq; **politoloq:** "Rusiyanın vasitəçiliyində həqiqət anı başlayır"; **Azərbaycan rəsmisi:** "Münaqişənin dondurulmuş şəkildə qalması müharibəni qaçılmaz edir..."

**Azərbaycan prezidenti İlham Əliyevin Dağlıq Qarabağ mövzusunda son açıqlamaları konfliktin həllində olduqca həssas bir mərhələnin yetişdiyinə şübhə yeri saxlamadı. Bu həssaslıq da ondan ibarətdir ki, status-kvo, yəni işğal rejimi daha bir neçə il uzana bilməz və münaqişənin çözümündə real irəliləyişə nail olmaq zamanı çatıb.**




Əfsus ki, 4 günlük aprel döyüşlərindən sonra təhlükəli status-kvonu yaxşıya dəyişmək, nizamlama prosesini, nəhayət, irəli aparmaq üçün unikal bir şans yaransa da, bu şansdan ATƏT-in Minsk Qrupu həmsədrləri istifadə edə bilmədilər. Daha doğrusu, istifadə etmək istəmədilər.

Sözsüz ki, burada iki əsas həmsədr dövlət - Rusiya və ABŞ arasında yaşanan gərgin münasibətlər də öz neqativ rolunu oynadı və oynamaqdadır. Ancaq fakt, yaxud acı gerçək bundan ibarətdir ki, buraxılan sülh şansı yeni müharibə riskini təzədən aktuallaşdırıb. Qarabağda müharibə isə həm Qərbin *(Amerikanın)*, həm də Rusiyanın cari və orta perspektivli maraqlarına qətiyyən cavab vermir. Səbəblər haqda dəfələrlə yazılıb.

***

Bəs qarşıdakı dönəm, daha dəqiqi, ilin sonunadək qalan iki ay yarımlıq zaman kəsiyi nə vəd edir, nəhayət ki, sülh prosesini dalandan çıxarmaq mümkün olacaqmı? Birdaca qeyd edək ki, ötən həftə problemlə bağlı həm nikbin, həm də bədbin açıqlamaların şahidi olduq. Əsasən də Rusiya rəsmilərinin *(Rusiya prezidentinin köməkçisi Yuri Uşakov, xarici işlər naziri Sergey Lavrov)* dilindən belə bəyanatlar eşitdik.

**Politoloq Rasim Musabəyova görə, bu qəbildən ziddiyyətli açıqlamalar konflikt ətrafında yüksək dərəcədə qeyri-müəyyənliyin hökm sürməsindən qaynaqlanır. Onun sözlərinə görə, yaranmış durumda danışıqlar real nizamlama istiqamətinə də yönələ bilər, növbəti dəfə kor dalana dirənə də:** "Prosesin gedişinə heç vaxt olmadığı qədər Rusiya tam nəzarət edir. ABŞ və Fransanın diqqəti bütünlüklə Ukrayna və Suriya cəlb edib. Üstəlik, bu iki ölkədə seçkilər və hökumət dəyişikliyi gözlənilir".

**Politoloq hesab edir ki, Rusiya-Türkiyə əlaqələrinin normallaşması, Suriya ilə bağlı iki dövlətin mövqeyinin yaxınlaşması, Moskva və Ankara arasında iri energetik layihələrin reallaşması Güney Qafqazda situasiyanın sabitləşməsində Türkiyənin Rusiya üçün tərəfdaş qismində rolunu artırır:** "Bu isə Qarabağ nizamlanmasını irəli apara bilər. O ayrı məsələ ki, Rusiya Türkiyənin Azərbaycana təsirindən istifadə edib Bakını qeyr-məqbul güzəştlərə sövq etmək istərdi. Ancaq Ankarada əla bilirlər ki, Bakı ilə nə haqda danışmaq olar, hansı məsələyə isə ən yaxşısı, toxunmamaqdır".

**Ekspert ehtimal edir ki, İstanbuldakı Beynəlxalq Enerji Konqresində iştirak edən prezident İlham Əliyevin Rusiya və Türkiyə prezidentləri ilə təmas imkanı olub və Dağlıq Qarabağ probleminin nizamlanmasına dair Moskvadan, digər vasitəçilərdən hansı səylərin ola biləcəyi haqda bilgili dir.** "Prezident bağlı qapılar arxasında Azərbaycana ərazi bütövlüyünə toxunan güzəştlərə getmək üçün təzyiqlər olduğu haqda sözləri də yalnız ona görə dilə gətirib ki, bu güzəştlərin qəti şəkildə qəbul edilməzliyinə diqqət yönəltsin" - Musabəyov vurğulayıb.

"Əgər beynəlxalq hüquqa uyğun surətdə sülhə nail olunmaması o demək deyil ki, dərhal böyük müharibə başlayacaq. Ancaq ermənilərin nəqliyyat-kommunikasiya izolyasiyası, iqtisadi tənəzzülü, onlara hərbi, diplomatik və informasiya təzyiqləri davam edəcək. Ermənistanın demoqrafik, maliyyə-iqtisadi imkanları durmadan daralır. Bu ölkənin on minlərlə əhalisi emiqrasiyaya gedir, doğum faizi aşağı düşür. Ermənistanın büdcə xərcləri gələn il üçün 10% az, hərbi xərcləri 25% çox nəzərdə tutulub. Bu da o deməkdir ki, onsuz da kasad olan sosial xərclər amansızcasına daha da azaldılacaq. Ermənistanın dəstəklənməsi ağır yük kimi Rusiyanın üstündə qalacaq. Təmas xəttində toqquşmaların bərpası isə Moskvanın Azərbaycan və Türkiyə ilə layihələri üçün əlavə risklər yaradacaq. İrəvandakı paradda nümayiş etdirilən heç bir "İsgəndər" bu reallıqları dəyişmir. Rusiyanın vasitəçiliyində həqiqət anı başlayır" - sonda politoloq qeyd edib.

***

**"Münaqişənin dondurulmuş halda qalması müharibəyə gətirə bilər". Bu sözləri isə Azərbaycanın Prezident Administrasiyası (PA) rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov "Azərbaycan" qəzetində dərc olunan "Müstəqil Azərbaycan dünyada böyük nüfuza, güclü beynəlxalq mövqeyə sahibdir" başlıqlı məqaləsində yazıb.**

"Minsk Qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda bu günə qədər irəliləyiş əldə edilməyib. Ermənistan Dağlıq Qarabağ münaqişənin həllində maraqlı deyil", - deyə PA yetkilsi qeyd edib. Onun sözlərinə görə, Ermənistan "Nə hərb, nə də sülh vəziyyəti"ni saxlamaq istəyir: "Lakin 2016-cı ilin aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində qoşunların təmas xəttində çoxsaylı insan təlafatı ilə müşayiət olunan gərginlik bir daha göstərdi ki, Qarabağ münaqişəsinin dondurulmuş qalması hər an qaynar müharibəyə səbəb ola bilər. Beynəlxalq vasitəçilər isə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsələr də, nədənsə bununla bağlı birmənalı mövqe nümayiş etdirmirlər. Biz Minsk Qrupu həmsədri olan dövlətlərin, eləcə də dünya ictimaiyyətinin münaqişənin ədalətli həlli üçün konkret addımlar atmasını gözləyirik. Ədalət prinsipinə əməl edilməsi nəinki regionu, bütün dünyanı böhrana sürükləyir".

***

Bu da Ermənistana, həmsədrlərə növbəti sülh çağırışı. Əfsuslar olsun ki, bu çağırışlara işğalçı ölkə daha çox hərbi ritorika ilə, İrəvanda hərbi parad, Azərbaycanın işğal altındakı ərazilərində isə hərbi təlimlər keçirməklə cavab verir. Vasitəçi dövlətlər isə Ermənistanın sülhə qarşı bu cür de-marşlarını susqunluqla qarşılamaqdadır. Əksinə, işğalçı ölkənin Rusiyadan aldığı yeni silahlar, ABŞ-dan isə aldığı müasir müşahidə sistemi təcavüzkar tərəfi bir az da özünəarxayın edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi




# "Pula Rəsulzadənin şəklinin vurulmasının əleyhinə olmuşan"

## Sabiq maliyyə naziri Saleh Məmmədov: "Manatın dizaynının dəyişdirilməsinə sərf ediləcək vəsaitin..."

**Bir neçə gün öncə Milli Məclisin keçirilən plenar iclasında parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov milli valyutanın üzərində Heydər Əliyevin şəklinin vurulmasını təklif edib. O xatırladıb ki, Türkiyənin milli valyutasının üzərində də Mustafa Kamal Atatürkün şəkli var: "Dünyanın bir neçə ölkəsində bu ənənə var. Heydər Əliyevin adı hər yerdə olmalıdır. Kimsə onun şəklini sinəsində gəzdirirsə, burada pis nəsə yoxdur. Heydər Əliyevin xatirəsi əbədi olmalıdır".**

Xatırladaq ki, Azərbaycan manatı dövriyyəyə buraxılandan bu günə qədər 2 dəfə dəyişilib.

1992-ci ilin avqustunda üzərində "Qız qalası" əks olunan 1, 10 və 250 manatlıq əsginazlar, noyabrda 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginaz, 1993-cü ilin martında isə Nizami Gəncəvinin portreti olan 500 və Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadənin portreti olan 1000 manat nominallı kağız əsginazlar dövriyyəyə buraxıldı. 1000 manatı ifadə edən bu pul nişanı 2006-cı ildəki denominasiyadan əvvəl dizayn dəyişikliyinə "məruz" qalsa da, "əvvəlki adı"nı saxladı.

Yeni dizaynlı 1000 manatlıqlarımız İngiltərədə 2001-ci ildə "De La Rue" şirkəti tərəfindən buraxıldı. Məhəmməd Əmin Rəsulzadənin şəkli əks olunan köhnə 1000 manatlıqların yenisi Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edildi. M.Ə.Rəsulzadənin və N.Gəncəvinin şəkillərinin pul nominallarının üzərindən götürülməsinə üzülənlərlə yanaşı, sevinənlər və bunu düzgün addım hesab edənlər də olmuşdu. Səbəb isə hansı bir nominallı pul vahidinin şəxsiyyətin adı ilə çağırılması və bu cür şəxsiyyətlərin şəkli olan pulların ayaq altına atılması və sairə ilə bağlı idi.

Prezident İlham Əliyevin 7 fevral 2005-ci il tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərmanına uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat AZN 5000 köhnə AZM-ə bərabər tutuldu. AZM və AZN birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə oldu və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edildi. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginazlar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət oldu. Azərbaycanın yeni nəsil əsginaz və sikkələrin dizaynları vahid konsepsiya əsasında hazırlanıb. Yeni pulların dizayn mövzusu "Müstəqil Azərbaycan" müəyyən edilib. AZN-lərin dizaynı Avronun müəllifi Robert Kalinaya məxsusdur. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb, 4 pilləli mühafizə sisteminə malikdir.


Saleh Məmmədov

Ümumiyyətlə, bir çox dünya ölkələrində pulların üzərində siyasi xadimlərin deyil, ölkənin mədəniyyətini və ya görməli yerlərini əks etdirən, həmçinin müxtəlif mifik obrazların rəsmləri yer alır. Milli valyutaların üzərinə ictimai və siyasi xadimlərin, ümumiyyətlə, məşhur şəxsiyyətlərin rəsmləri həkk olunan ölkələr də çoxdur. Bu ölkələrdən biri də Türkiyədir. Türk lirəsının üzərində Mustafa Kamal Atatürkün rəsmi var. Yeni Zelandiyanın 5 dollarlıq banknotun bir tərəfində dünyanın ən uca dağı olan Everestin ilk fatehlərindən olan Edmund Hillari, digər tərəfində isə pinqvin təsvir edilib. Yeni Zelandiyanın 5 dollarlıq əsginazı 2015-ci ilin ən gözəl pul vahidi seçilib.

Ümumi baxdıqda dünya ölkələri arasında daha çox ABŞ əsginazlarında dövlət xadimlərinin rəsmi əks olunub. Belə ki, ABŞ-ın birinci prezidenti Corc Vaşinqtonun portreti 1 dollarlıq əsginazı, üçüncü prezident Tomas Cefferson 2 dollarlıq, ABŞ-ın 16-cı prezidenti Şimal Cənub müharibəsinin qalibi Abraam Linkoln 5 dollarlıq, ABŞ-ın əsasını qoyanlardan olmuş və ilk maliyyə naziri Aleksandr Hamilton 10 dollarlıq, ABŞ-ın yeddinci prezidenti və müasir dolların yaradıcılarından olmuş Endrü Cekson 20 dollarlıq, ABŞ-ın 18-ci prezidenti və vətəndaş müharibəsinin qəhrəmanı Uillis Qrant 50 dollarlıq, alim, publisist və diplomat Benjamin Franklin 100 dollarlıq əsginazda əks olunub. Milli valyutalarının üzərində qadın rəsmləri həkk olunan 10 dövlət var.

Göründüyü kimi, milli valyutasının üzərinə dövlət xadimlərinin rəsmini həkk etdirən dövlətlər kifayət qədərdir.

**AXC hökumətində maliyyə naziri postunu tutmuş Saleh Məmmədov üzərinə siyasi xadimin şəkli olan pulun hazırlanması təklifini narazılıqla qarşıladığını bildirdi:** "Ümumiyyətlə, birinci dəfə də pul buraxılanda milli liderlərin şəklinin pul əsginazlarının üstünə qoyulmasının əleyhinə olmuşdum, indi də bu fikirdəyəm. Milli adət-ənənələrimizi bilirsiniz, toyda pullar tez-tez ayaq altında olur. Buna görə də bu istiqamətdə hər hansı təklifin əksinəyəm".

S.Məmmədov manatın dəyərdən düşdüyü hazırkı məqamda manatın dizaynının dəyişdirilməsinə sərf ediləcək pulun büdcəyə müəyyən qədər gəlir gətirən istiqamətə sərf edilməsini daha məqsədəuyğun hesab etdiyini bildirdi.

**İqtisadçı ekspert Rəşad Həsənov da bunun iqtisadiyyata hansısa müsbət bir təsirinin olmayacağını dedi:** "Burada iqtisadi dəyişiklikdən söhbət getmir. Əgər söhbət, sadəcə olaraq, manatın dizaynının dəyişməsindən gedirsə, deyəcəyim odur ki, hazırda bu istiqamətdə xərc çəkilməsinə ehtiyac yoxdur. Hazırda manatın dizaynının və yaxud da ki, sıfırlarının sayını dəyişdirməklə hər hansısa bir formada iqtisadi uğur əldə edə bilməyəcəyik. Digər məsələlər isə artıq siyasi məsələlərdir ki, hərə bir fikir səsləndirir. Fikir səsləndirərkən də böyük ehtimalla düşüncələrində hansısa bir şəxsi məqsədlərinə nail olmaq və yaxud da ki, istəklərinə daha tez çatmaq kimi hədəflər olur. Yəni burada başqa izahedici nəsə görə bilmirəm. Hazırkı dövrdə manatın dizaynının dəyişməsi istiqamətində əlavə xərc çəkməyə ehtiyac yoxdur. Çünki çox mühüm istiqamətlər var ki, o istiqamətlərə hazırda vəsaitlərin xərclənməsi daha doğru olardı, nəinki manatın yenidən nominasiya edilməsinə".

❑ Günel MANAFLI

# Gədəbəyin "sarı qızıl"ı - büdcəmiz nə qazanacaq?

## Bildirilir ki, davamlı olaraq qiymətli metalın hasilatına şərait var, ekspertlər nikbindir...

**Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan "Anglo-Asian Mining Plc." şirkəti "Gədəbəy" yatağının yeni ərazisində qızıl kəşfiyyatı aparmaq məqsədilə lisenziya alıb. "Report"un xəbərinə görə, yeni yataq "Uğur" adlandırılıb. "Uğur" şirkətin qələviləşdirilmiş plantasiyasının 3 km Şimal-Qərbində yerləşir.**

**Şirkətin baş icraçı direktoru Rıza Vəziri** deyib ki, bu yatağın çox böyük əhəmiyyəti var: "İnanıram ki, "Anglo-Asian" çox əhəmiyyətli mövqedədir. Bu mövqe "Gədəbəy"də davamlı olaraq hasilata şərait yaradacaq". Xəbərə görə, aparılmış 20 müxtəlif testin nəticəsində aşkar edilib ki, qiymətli metal 360 metr dərinliyə qədər yerləşir. 34 metrə qədər hər tona 0,39 qram qızıl düşür. Açıqlamada qeyd edilir ki, gələcəkdə "Uğur"un kəşfiyyat ərazisi 1500 metrə qədər cənuba genişləndiriləcək. Artıq "Anglo-Asian Mining Plc." işin ilkin fazasında ümumi dərinliyin ölçülməsi və minerallaşmanın xüsusiyyətlərinin öyrənilməsinə başlayıb. Əsas işlərə isə 2017-ci ildə başlanması nəzərdə tutulur.

"Anglo-Asian Mining Plc." şirkəti Azərbaycanın 6 qızıl yatağının işlənməsi layihəsinin operatorudur. Şirkətin əsas payçısı Rıza Vəziriyə məxsus "R.V.Investment Group Services, LL USA" şirkətidir. "R.V.Investment Group Services LL USA" şirkəti "Gədəbəy" yatağında qızıl hasilatı üzrə layihədə 51, Azərbaycan tərəfi isə 49 faiz paya sahibdir. Gədəbəy yatağında təqribən 22 ton qızıl, 192 ton gümüş, 37 min ton mis ehtiyatının olduğu güman edilir.



**Ekspertlər musavat.com-a qızıl yatağının gələcək perspektivləri barədə fikirlərini bölüşüblər. Ekspert Fikrət Yusifov bildirib ki, Azərbaycan təbii sərvətləri ilə çox zəngin bir diyardır:** "Azərbaycanda tək qızıl ehtiyatları deyil, bizə bəlli olan əksər təbii ehtiyatlar var. Yəni Gədəbəydə yeni qızıl yatağının aşkarlanması heç də təsadüfi bir hal deyil. Azərbaycan özünün qızıl ehtiyatlarına görə MDB məkanında aparıcı yerlərdən birinə sahibdir. Yeni qızıl yataqlarının aşkar olunması o deməkdir ki, biz ehtiyatlarımızı bir qədər də artıra bilərik. Hər hansı bir ölkənin beynəlxalq sahədə maliyyə durumu, reytinqi müəyyən edilərkən dəyər, qiymət verilən əsas göstəricilərdən biri də ölkənin valyuta, qızıl ehtiyatlarının olmasıdır. Valyuta ehtiyatlarımız kifayət qədər çoxdur, 40 milyard ABŞ dolları civarındadır. Qızıl ehtiyatlarımızın da səviyyəsinə görə bizim MDB məkanında aparıcı yerə qədər gəlib çıxmağımız o deməkdir ki, sabah hər hansı bir reytinq agentliyi Azərbaycanın reytinqini müəyən edərkən bu göstəriciyə görə yüksək qiymət verə bilər. Yeni qızıl yataqlarının aşkar olunmasına gəldikdə, ilk növbədə baxmaq lazımdır orada qızıl nə qədərdir. Ehtiyatların həcmini dəyərləndirmək lazımdır. Əgər bu həcm böyük olarsa, demək, bizim praktik olaraq daha yaxşı valyuta, qızıl ehtiyatlarımız formalaşır. Xüsusən bunun aparıcı rolu olacaq".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a açıqlamasında deyib ki, əslində ilk olaraq qızılın həcmi və işlətməsi ilə bağlı doğru-dürüst məlumatlar lazımdır:** "Bunu bilmək lazımdır ki, istehsal gücü nə qədər olacaq. Bu qızılın hasil olunması üçün nə qədər zamana ehtiyac var. Bundan sonra təbii ki, dünya bazarında qızılın qiymətinin təqribən bir unsiyasının 1300-1350 dollar civarında dəyişməsi kifayət qədər böyük gəlirlərin gəlməsinə şərait yarada bilər. Sadəcə, bizim nə qədər istehsal etmə gücümüzün olması öyrənilməlidir. Bunun dünya bazarlarına çıxarılması məsələsi həll olunmalıdır. Çünki Azərbaycana kifayət qədər texnologiyaların gəlməsinə ehtiyac var bununla bağlı. Bu günə qədər bir çox hallarda qızılın cilalanması, təmizlənməsi, yüksək ayarlı hala gətirilməsi Azərbaycandan kənarda həyata keçirilirdi. Ona görə də həmin yataqlarda kifayət qədər böyük həcmdə qızılın olması təsdiqlənərsə, təbii ki, Azərbaycana böyük məbləğdə valyutanın gəlməsinə şərait yarada bilər. Amma düşünmürəm ki, bu, neftdən gələn gəlirləri əvəz etmək iqtidarında olacaq. Çünki elə illər olub ki, neftdən Azərbaycan 27 milyard dollar pul qazanıb. Düşünmürəm ki, qızıldan bu qədər pul qazanılması mümkün olsun".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016

# Bakını iflic edən qurumun adı bəlli oldu - "Azəravtoyol"

## Yollara nəzarət Saleh Məmmədovun rəhbərlik etdiyi quruma tapşırılıb; amma küçələri su basanda ASC-nin nümayəndələri gözə görünmədilər









**16-18 oktyabrda Bakıya yağan yağış paytaxtın əsas avtomobil yollarında nəqliyyatın hərəkətini iflic edib. Ziya Bünyadov prospekti, Heydər Əliyev prospekti, Afiyəddin Cəlilov küçəsi, Nobel prospekti, Niyazi küçəsi, habelə Əbdürrəhim bəy Haqverdiyev, Səməd Vurğun küçələri, Abbasqulu ağa Bakıxanov küçəsi və Tbilisi prospektində tıxac yaranıb. Bir neçə kilometr uzunluqdakı tıxacların əsas səbəbi yollarda, yol qovşaqları və körpülərin altında böyük gölməçələrin əmələ gəlməsidir.**

Həmçinin Binəqədi rayonunda əksər küçələri, evləri sel basıb.

Sinoptiklərin məlumatına görə, yağışlı hava şəraiti oktyabrın sonuna qədər davam edəcək. Bu o deməkdir ki, Bakıda tıxaclar da bu müddətdə əskik olmayacaq. Hər dəfə yağış yağıb bir neçə kilometrlik tıxaclar yarananda ən müxtəlif dövlət qurumlarının adı çəkilir. Son nəticədə isə yollarda hərəkətin intensivliyini təmin etməli qurum ortaya çıxmır ki, çıxmır.

Kimdir günahkar? Bakı Şəhər İcra Hakimiyyəti, yoxsa digər qurumlar?

Apardığımız kiçik araşdırma zamanı bəlli oldu ki, Bakı yollarında hərəkətin intensivliyini təmin etməli qurum "Azəravtoyol" ASC-dir. Qanuna görə, avtomobillərin intensiv hərəkət etmələri, yol və yol qurğularının daim işlək vəziyyətdə olması vəzifəsi "Azəravtoyol" ASC-nin üzərindədir.

Avtomobillərin davamlı və maneəsiz hərəkətini təmin etməli olan bu qurum yağış yağan zaman sanki qeybə çəkilir.

Halbuki yol və yol qurğuları tikildikdən sonra məhz "Azəravtoyol" ASC-nin balansına verilir. Hər il dövlət büdcəsindən yolların işlək vəziyyətdə olmasının təmin edilməsi üçün milyonlarla manat ayrılır. "Azəravtoyol" ASC rəsmilərinin həmin milyonları təyinatı üzrə xərclədikləri isə hər dəfə yağış yağanda üzə çıxır. Bunu isbatlamaq üçün uzun-uzadı yoxlamaya da ehtiyac yoxdur. Bakının Ziya Bünyadov prospektində artıq bir neçə ildir ki, böyük gölməçələr yaranır, Bakının mərkəzi prospekti keçilməz duruma düşür. Oktyabrın 17-də bu istiqamətdə yaranan tıxac prospektə bitişən və kəsişən yollarda uzun tıxaclar yaratsa da, yolda tıxac səhərdən axşama qədər davam etsə də, "Azəravtoyol" ASC rəsmilərini ərazidə görən olmayıb. Heç müvafiq texnikanı da "Azəravtoyol" ASC yollara çıxarmadı.

Qeyd edək ki, 2015-ci ilin dekabrında prezident İlham Əliyev "Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 fevral tarixli 1992 nömrəli sərəncamında dəyişikliklər edilməsi barədə sərəncam imzalayıb.

**Yeni sərəncama əsasən, 2007-ci il 22 fevral tarixli sərəncamda aşağıdakı dəyişikliklər edilib:**

1-ci hissədən "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri çıxarılır. Nazirlər Kabinetinə "Azəryolservis" *(o zaman quruma hələ "Azəravtoyol" ASC adı verilməmişdi. Prezident İlham Əliyevin 2016-cı il 9 mart tarixli Fərmanı ilə "Azəryolservis" ASC-nin adı dəyişdirilərək "Azəravtoyol" ASC adlandırılıb-red.)* Açıq Səhmdar Cəmiyyətinin yeni Nizamnaməsinin və strukturunun layihələrini bir ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək; "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin ümumi yığıncağının səlahiyyətlərini həyata keçirən dövlət orqanları barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək; Nəqliyyat Nazirliyinin balansında olan avtomobil yollarının "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin balansına verilməsini bir ay müddətində təmin etmək; bu sərəncama əsasən, "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin balansına verilən avtomobil yollarının idarə olunması, təmiri, saxlanması, qorunması və yenidən qurulması xərcləri ilə bağlı illik büdcə vəsaitinin "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinə ayrılmasını təmin etmək; Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Prezidentinə təqdim etmək; Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Prezidentinə məlumat vermək; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə iki ay müddətində Azərbaycan Prezidentinə məlumat vermək; bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Belə görünür ki, "Azəravtoyol" ASC-yə 2015-ci ilin fevralında sədr təyin olunan Saleh Məmmədovun prezidentin bu sərəncamından xəbəri yoxdur. Və ya S.Məmmədov Bakıda yerləşən "Azəravtoyol" ASC-ni xaricdən, yollarda intensiv hərəkətin təmin olunduğu bir regiondan distansion olaraq idarə edir.

❑ E.HÜSEYNOV

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**070-888-91-50**

bakcell

## «Bakcell» "Gənclərin Karyera və İnkişaf Mərkəzi"nin nəticələrini elan edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkətinin dəstəyi ilə "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyi tərəfindən icra edilən "Gənclərin Karyera və İnkişaf Mərkəzi" layihəsi uğurla başa çatıb.**

**Layihə çərçivəsində Bakı SOS Uşaq Kəndində yaradılan "Gənclərin Karyera və İnkişaf Mərkəzi" bütün lazımi avadanlıqlarla təchiz edilib. 68 nəfər gənc bu mərkəzdə müsahibə qabiliyyətləri, CV yazmaq, karyera istiqamətləndirilməsi və mühasibatlıq kurslarını müvəffəqiyyətlə bitirib. Təlimləri uğurla bitirən gənclər sırasından 5 nəfər isə artıq öz kiçik biznesini quraraq işləməyə başlayıb.**

**Bununla yanaşı, "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası İB-nin veb-səhifəsində gənclərin məşğulluğu bölümü yaradılıb. Bu layihə çərçivəsində mərkəzdə keçirilən təlim və kursları tamamlayan 50 nəfər gəncin CV-ləri həmin bölümə əlavə edilib. Bölümdə həmçinin sözügedən layihə və tərəfdaşlar barədə ətraflı məlumat, müvafiq qanunvericilik və məşğulluq imkanlarının əldə edilməsi üçün əlavə faydalı məlumat var. Bölümə keçid: http://soschildren.az/1/static/33 ttp://soschildren.az/1/static/33**

**Qeyd edək ki, bu layihə SOS UK Azərbaycan Assosiasiyasının benefisiarlarını və Təhsil Nazirliyinin tabeçiliyində olan müvafiq qurumların xidmət etdiyi uşaqları və gəncləri əhatə etməklə onların məşğulluq imkanlarının genişləndirilməsi və bu sahədə bilik və səriştələrinin artırılması üçün həyata keçirilib. Layihənin əhatə etdiyi benefisiarlar əsasən valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaqlar və gənclərdir.**

YENİ MÜSAVAT
N 231 (6552) 19 oktyabr 2016




# İşsizliyin acı statistikası - ekspertlər gerçək durumdan danışır

**Azərbaycanda rəsmən 33 min işsiz var. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Onların 37,9 faizini qadınlar təşkil edir. Təbii ki, bu rəqəm inandırıcı görünmür. Ekspertlərə görə, xüsusən də manatın ikinci devalvasiyasından sonra ölkədə "işsizlər ordusu" yaranmağa başlayıb. Bir-birinin ardınca bankların bağlanması və ya müflis olması isə bu prosesi daha da sürətləndirib.**

İddialara görə, fəaliyyətdə olan banklar da maliyyə problemləri üzündən kredit mütəxəssislərindən imtina edib ki, bunun da nəticəsində onların 70-80 faizi hazırda işsiz qalıb. Valyutadəyişmə məntəqələrinin bağlanması ilə isə 6000-dən çox insanın işsiz qaldığı təxmin edilir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bugünlərdə verdiyi açıqlamada bildirmişdi ki, bank-maliyyə sektorunda baş verən dəyişikliklərlə əlaqədar 2700 nəfər yerli məşğulluq mərkəzlərinə müraciət edib.

Tikinti sahəsində də kifayət qədər insan işsiz qalıb. Manatın dəyərinin düşməsi ilə tikinti materiallarının qiyməti bahalaşıb və ardınca əksər inşaat işləri dayandırılıb. Nəticədə kütləvi şəkildə fəhlə və mühəndislər, o cümlədə bu sektorda çalışan digər mütəxəssislər işini itirib.

Digər əsaslardan biri isə son iki ildə çoxsaylı əcnəbi şirkətlərin ölkəmizi tərk etməsi ilə bağlıdır. Statistik məlumata görə, təkcə ötən il 71 xarici şirkət və nümayəndəliyi fəaliyyətini dayandırıb. Bu il isə yarım il ərzində 45 xarici müəssisə ləğv edilib. Nəzərə alsaq ki, həmin müəssisə və ya təşkilatlarda çalışanların əksəriyyəti yerli vətəndaşlar olub, o zaman yüzlərlə azərbaycanlının işsiz qaldığını hesablamaq çətin deyil.



**Fikrət Yusifov:** "İşsizlik daha çox bank və tikinti sektorunda mövcuddur"



**Əhməd Qəşəmoğlu:** "Ümumiyyətlə, əvvəldən Azərbaycan cəmiyyəti belə olub ki..."

Ekspertlər bildirir ki, regionlarda vəziyyət daha gərgindir. O cümlədən Gəncə, Mingəçevir, Sumqayıt kimi böyük şəhərlərdə işsizlərin sayı xeyli artıb. Bütün bunları nəzərə alaraq ölkədə cəmi 33 min nəfərin işsiz olması reallıqdan kənardır. Bəs işsizliyin statistikası niyə gizlədilir?

**Sabiq maliyyə naziri, iqtisadçı ekspert Fikrət Yusifov məsələyə bu cür aydınlıq gətirdi:** "Statistikanın hesabatının müəyyən bir xüsusiyyəti var. Bu, ondan ibarətdir ki, işsiz insanlar gərək müəyyən aidiyyəti qaydada uçota dayansınlar. Məhz onlar uçota dayanandan sonra işsizlik qeydə alınır. Bank sektorunda aparılan islahatlarla əlaqədar bir neçə bank və filiallarının bağlanılması nəticəsində ölkədə bu sektordakı işsizlərin sayı artıb. Bəs bu işsizlərin taleyi necə olacaq? Əvvəla, dövlət onlara işsizliyə görə müavinət verir. Bankların bağlanılması ilə əlaqədar Sosial Müdafiə Nazirliyinin xətti ilə müvafiq qaydada müavinət ala bilərlər, ta ki, yeni iş tapana qədər. İkinci bir qrup insanlar isə yəqin ki, yeni iş yeri axtarmaq məcburiyyətində qalacaqlar. Bir qrup isə öz peşəsini dəyişməklə başqa sahədə fəaliyyətə keçəcək. Bütövlükdə bununla bağlı statistikanın verdiyi məlumat işsizlərin uçota dayanmasına əsaslanan rəqəmlərdir. Ola bilsin ki, işsizlərin sayı həmin rəqəmdən çox artıqdır. Lakin işsizlər gərək uçota dayansın ki, statistika onları da qeydə alsın".

**Ekspertin fikrincə, Azərbaycanda bu sahədə təbliğat işləri zəifdir:** "Yəni insanlar sona qədər öz hüquqlarını bilmirlər. Əgər şəxs özündən asılı olmayan səbəblərdən, tutaq ki, müəssisənin bağlanılması ucbatından işsiz qalıbsa, o, uçota dayanıb dövlətdən müavinət ala bilər. Bu baxımdan, insanlar arasında maarifləndirməyə ehtiyac var. Məsələ daha çox buradan qaynaqlanır".

İqtisadçı ekspert həmçinin qeyd etdi ki, işsizlik daha çox bank və tikinti sektorunda mövcuddur. Buna səbəb isə bank sektorunda baş verənlər və iqtisadi böhranla bağlı müəyyən layihələrin dayandırılmasıdır.

Bəs işsiz qadınların sayı niyə çoxdur? Dövlət Statistika Komitəsinin yaydığı məlumatdan aydın olur ki, işsizlərin 37 faizini qadınlar təşkil edir. Ekspertlər isə iddia edirlər ki, ölkədə işsizlərin əksəriyyəti elə qadınlardır. Yəni reallıqda işsiz qadınların sayı daha çoxdur. Səbəb nədir?

Araşdırmalardan məlum olur ki, Azərbaycanda qadınların çoxu pedaqoji, tibbi sahədə çalışmağa üstünlük verir. Lakin həmin sahələrdə də iş tapmaq o qədər asan deyil. Özəl müəssisələrdə isə rəhbər şəxslər analıq məzuniyyəti, uşağa baxmaq üçün tibbi bülleten götürən qadına deyil, əks cinsin nümayəndələrinə üstünlük verir.

**Sosioloq Əhməd Qəşəmoğlu mövzuya bu cür şərh verdi:** "Ümumiyyətlə, əvvəldən Azərbaycan cəmiyyəti belə olub ki, kişilər işləyib, qadınlar daha çox evdə fəaliyyət göstəriblər. Uzun müddət isə kişilər qadınların işləməsinə qarşı çıxıb. Yəni ənənəvi olaraq qadınlar aktiv fəaliyyətdə olmayıb. İndiki vaxtda isə əvvəla, iş yerlərinin sayı çox deyil. İş yerləri olanda isə daha çox ağır işlər çox olur, hansı ki, qadınların həmin işlərdə çalışmasına ailədə çox zaman razılıq vermirlər. Qadınlarımızın özləri də meyllidirlər ki, daha çox ev işlərində çalışsınlar. Onların iş axtarmaq fəallığı kişilər qədər deyil. Bunun nəticəsində yekun olaraq, işsiz qadınların sayı daha çox olur".

❑ Xalidə GƏRAY

# Hökumətin xaricdən təcili borc almağa ehtiyacı varmı?

## Ekspertlər mövcud durumu və şərtləri dəyərləndirirlər

**Ölkənin beynəlxalq təşkilatlardan kredit cəlb etmək imkanları müzakirə olunmaqdadır. Müxtəlif səviyyələrdə gedən müzakirələrin bir qismi açıqlansa da, ekspertlər mövcud şəraiti uyğun hesab etmirlər. Bildirilir ki, beynəlxalq qurumların kredit şərtlərinə Azərbaycan hazır deyil. Həmçinin ölkənin kredit reytinqinin aşağı düşməsi, ölkədə ümumi iqtisadiyyatla bağlı durumun təhlili də bunu deməyə imkan verir. Beynəlxalq təşkilatlar bu halda daha yüksək faizlə kredit verə bilərlər ki, bu da arzuolunan deyil. Əksər ekspertlər ölkənin təcili şəkildə pula ehtiyacı olduğunu vurğulayırlar.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Azərbaycanın özünün daxildə dövlət büdcəsi ilə bağlı problemlərdən, yaxud onun formalaşdırılmasından başqa, bir neçə böyük beynəlxalq öhdəlikləri də var: "Bu, əsasən "Cənub Qaz Dəhlizi" proqramına aid məsələlərdir. TANAP-la və TAP-la bağlı layihələrdir ki, Azərbaycanın kifayət qədər yüksək payı var. "Şahdəniz-2" layihəsində 20 faiz maliyyələşmə, TANAP-da 57 faiz, TAP-da isə 20 faiz maliyyələşmə Azərbaycanın üzərindədir. Əsas da bu dəqiqə hökuməti düşündürən və maraqlandıran məsələ məhz bu layihələrin maliyyələşdirmə mənbələrinin tapılmasıdır. Bildiyim qədər, TAP-la bağlı danışıqlarda yeni irəliləyiş var. Avropa Yenidənqurma və İnkişaf Bankı TAP layihəsinin maliyyələşməsi üçün kredit ayırmağa hazırdır. Amma burada




əsas şərtlərdən biri həmin kreditin Avropa Birliyi ərazisində, Yunanıstan ərazisində xərclənməsi tələbidir. TAP da əsasən məhz həmin ərazidə həyata keçirilmək üçün düşünülür. Bu da Avropa Birliyi ərazisində əlavə iş yerlərinin yaranmasına səbəb olacaq. Yəni bununla bağlı danışıqlarda müəyyən irəliləyiş var".

**Ekspertin sözlərinə görə, əsas məsələ məhz bu layihələrin maliyyələşdirilməsi məsələsidir ki, burada da kifayət qədər böyük məbləğdən söhbət gedir:** "Yaxın iki ildə Azərbaycan təqribən 16-18 milyard dollar investisiya xərclərində iştirak etməlidir. 2019-cu ilə qədər olmalıdır. Çünki 2020-ci ildə artıq bu layihə fəaliyyətə başlamalıdır. Daxili investisiyalara böyük maliyyə mənbələrinin ayrılması problemin bir tərəfidir, digər tərəfi həmin maliyyə mənbələrinin necə istifadə olunması və hansı sahələrin inkişafında daha önə çıxması məsələsidir. Yəni burada əsas məsələ bundan ibarətdir ki, Azərbaycan hökumətinin biznes planı olmalıdır ki, maliyyə qurumları ilə danışıqlar getsin və maliyyə vəsaitlərinin alınması ilə bağlı, onun necə xərclənməsi, hansı sahələrdə prioritetin olması razılaşdırılsın. Bir də Azərbaycan hökuməti bunu bir neçə dəfə bəyan edib ki, xüsusilə qeyri-neft sektoruna xarici investorların cəlb edilməsində maraqlıdır. Burada maraq var, hiss olunur ki, hökumət bunu istəyir. Sadəcə, burada oyun qaydaları dəyişmədən, müəyyən güzəştlər tətbiqi olmadan xarici investorların cəlb olunması çox çətindir. Çünki xarici investorları maraqlandıran bir neçə məsələ var. Bu, mülkiyyət toxunulmazlığı, məhkəmələrdə insanların hüquqlarının qorunması, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələləridir. Hökumət bu sahələrdə ciddi addımlar atsa, investisiyaların daha rahat şəkildə Azərbaycana gəlməsi, daha rahat şəkildə investorların Azərbaycana maraq göstərməsində bir sürətlənmə prosesi ola bilər. Çünki bu, çox vacibdir. Azərbaycanın bu dəqiqə ən çox ehtiyacı olduğu məsələ xarici investorların qeyri-neft sektoruna yatırımlara təşviq olunmasıdır".

**N.Cəfərli həmçinin qeyd edib ki, bu nöqteyi-nəzərdən, Azərbaycana hansısa məbləğin lazım olmasını hesablamaq çox çətindir:** "Çünki hansı sahələrin prioritet olması hələ tam məlum deyil. Gah kənd təsərrüfatının, gah İKT-nin, gah digər bir sahənin prioritet elan olunması, tez-tez bu prioritetlərin dəyişməsi investorlar üçün də bəlli oyun qaydalarının oturuşmasına gətirib çıxarır. Yəni ümumilikdə Azərbaycanı investisiyalar üçün cəlbedici bir ölkəyə çevirmək lazımdır. Bunun üçün də kifayət qədər keçiləsi yol var. Həm hüquqi sahədə, həm idarəetmədə kifayət qədər ciddi islahatlara ehtiyac var".

Əksər ekspertlərin fikrincə, bu gün xaricdən alınacaq kreditlərə ehtiyac böyükdür.

❑ RÖYA

YENİ MÜSAVAT

Son səhifə

N 231 (6552) 19 oktyabr 2016

# Böyrəyindən 300 daş çıxarıldı

Türkiyənin Mersin şəhərində özünü pis hiss etdiyi üçün xəstəxanaya müraciət edən kişinin böyrəyindən 300-ə qədər daş əməliyyatla götürülüb. Ağrı, yüksək temperatur və halsızlıq şikayətilə ilə şəhərdəki özəl bir xəstəxanaya gedən B.T-nin (34 yaş) keçirilən analizlər zamanı böyrəyində daş olduğu üzə çıxıb. Təcili əməliyyata aparılan xəstənin böyrəyindən təxminən 2.5 saat davam edən əməliyyat nəticəsində müxtəlif ölçülərdə 300-ə yaxın daş çıxarılıb. Qapalı böyrək daşı əməliyyatı ilə orqana bir deşikdən girilərək əməliyyat aparılıb. Həkim bildirib ki, ilk dəfədir ki, bu qədər çox sayda daş çıxarılan böyrək görür. Xəstə əməliyyatdan sonra bir günlük müalicə olunub və evə buraxılıb.



## Körpənin xasiyyəti... ömür boyu dəyişmir



Amerikalı alimlər hesab edirlər ki, yeni doğulmuş körpənin davranışı onun gələcəkdə necə insan olacağı haqda məlumat verə bilər.

Ekspertlər ABŞ-da son onillik ərzində arapdıqları tədqiqatlardan sonra bu nəticəyə gəliblər. Belə ki, alimlərin fikrincə, körpənin ilk aylarda göstərdiyi davranış xüsusiyyətlərinin onun gələcək şəxsiyyətində də yaranacağı ehtimalı böyükdür.

Son 10 il ərzində amerikalı alimlər 135-dən çox körpənin böyüməsini və inkişafını müşahidə ediblər. Hər altı aydan bir onlar uşaqları müəyyən testlərdən keçirərək, ilk müşahidə zamanı əldə edilən nəticələrlə müqayisə ediblər.

Körpələr üç qrupa bölünüb: temperamentlərinə görə "çətin" və "asan" olanlar, üçüncü qrup isə "asta inkişaf edən temperament" adlandırılıb. Eksperimentin nəticələrinə görə, uşaqların 90%-i ilk aid edildiyi qrupda da qalıb.

Beləliklə, alimlər müəyyən ediblər ki, həqiqətən də uşaqların körpəlikdə göstərdikləri davranışlara görə onların gələcək davranışlarını da müəyyən etmək mümkündür.

# 108 kilo arıqladı, intiharı məsləhət gördülər

Plus-size manekeni (böyük ölçülü paltarları nümayiş etdirən) Roza Merkado bildirib ki, arıqlayandan sonra qəzəbli fanatlarından çoxlu sayda məktub alıb. Belə ki, o, 108 kilo arıqladığı üçün kök fanatlarının qəzəbinə səbəb olub. Qadın əvvəl 185 kilo idi və güclü dieta proqramı ilə arıqlayıb: "Mən bədxahlarımdan çoxlu sayda məktublar aldım. Onlar mənə ucuz və asan ölüm arzulayırdılar. Çoxu deyirdi ki, hündür bir yerdən özümü atmaqla intihar etməliyəm. Onların fikrincə, mən arıqlamaqla özümü onlardan ayırmışam və bununla da böyük qəbahət etmişəm".

Merkadonun üç uşağı var. O, arıqlamağa bir təyyarə səfəri zamanı qərar verib. Belə ki, avikampaniyanın əməkdaşları ona bir yox, iki nəfərlik bilet almağı məsləhət görüblər. Çünki onun bir nəfərlik standart yerə sığışması mümkün deyildi. Bu söz qadına o qədər təsir etmişdi ki, o, səfərdən dərhal sonra dietaya və idman zalına getməyə başladı. Amerikan qadın artıq çəkidən qurtulan kimi model biznesində karyerasına davam edib.



## Səhər yeməyi yeməyənlər kökəlir



Səhər yeməyi yeməyən insanlar günün sonrakı saatlarında daha çox kalorili yeməkləri tərcih edir. Imperial College London tərəfindən aparılan araşdırmanın nəticələrinə görə, səhər yeməyi yeməyən nahar zamanı daha çox yeyir və gün ərzində də şirniyyat, çubuq, çips kimi "xırda-xuruş"a meyl edir. Araşdırmaya qatılan, normal çəkidəki şəxslərə paketdə çubuq, çips göstərilib. Onların səhər yeməyi yedikləri günlərlə bu yeməkləri yemədikləri günlərdəki beyin hərəkətləri izlənib. Məlum olub ki, səhər yeməyi yemədikləri gün beyinlərində bu cür "atışdırma yeməklərinə" qarşı meyl var. Bundan başqa, həmin şəxslər səhər yeməyi yeyənlərlə müqayisədə 20 faiz artıq kalori alır. Glasgou Universitetindən doktor Katerin Hankey deyib ki, səhər yeməyi iştahı tarazlayır və insanların daha çox yemək yeməsinə şərait yaradır. Hankey onu da deyib ki, səhər yeməyi qan şəkərini düzənləyir və insanı kalorili yeməklərə qarşı daha da iradəli edir.

## Qoroskop




**QOÇ** - Yeni layihələri gözdən keçirmək, təcrübəli insanlarla müzakirələr aparmaq üçün çox gözəl gündür. Belə fürsəti əldən buraxmaq olmaz, xüsusən də saat 16-18 arası. Gecəni öz evinizdə keçirin.

**BUĞA** - Hər bir məsələyə cəld reaksiya verməyiniz, bəzən son sözü əvvəldə deməyiniz sizi gözdən salır. Bu baxımdan bir qədər ayıq olmağınıza ehtiyac duyulur. Gün ərzində sevgidən qidalanın.

**ƏKİZLƏR** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün günün ilk yarısında daha diqqətli olmalı, heç bir riskli və yeni işlərə başlamamalısınız. Sonrakı müddətdə bütün məsələlərdə sərbəstsiniz.

**XƏRÇƏNG** - İçtirakçısı olduğunuz hadisələrdə bədbin düşüncələrə qapılmayın. Çünki ulduzlar sizə saat 12-dən etibarən böyük perspektivlər vəd edir. Dost bildiklərinizə elə dost kimi baxın.

**ŞİR** - Günün ümumi mənzərəsi gərgin fonla müşahidə olunduğundan bütün vacib işlərinizi təxirə salmalısınız. Bu gün yaxşı olar ki, məişət və müalicə ilə bağlı planlarınızla məşğul olun.

**QIZ** - Texniki cihazlarla ehtiyatlı davransanız, ixtiyarınızda olan bu təqvimi könül xoşluğu ilə başa vuracaqsınız. Sizə hörmət bəsləyən kəslərə siz də laqeyd yanaşmayın. Ac qalmayın, qidanıza əhəmiyyət verin.

**TƏRƏZİ** - Darıxdırıcı məqamlarınız artıq başa çatmaq üzrədir. Bu səbəbdən boş-boşuna oturmamalı, ümid işığı gələn bütün istiqamətlərə baş vurmalısınız. Dost köməyinə arxa çevirməyin.

**ƏQRƏB** - Dünənki kimi bu gün də sizi maddi uğurlar müşayiət edəcək. Çalışın ki, belə gözəl məqamda kimlərinsə qəlbini qırmayasınız. Əksinə, çoxdan görmədiyiniz doğmalarınızla mütləq əlaqə yaradın.

**OXATAN** - Mistik düşüncələrdən uzaq olun. Hər hansı falçıya üz tutmaqdansa problemlərin həllini özünüzdə axtarın. Unutmayın ki, Allaha sığınan bəndə sıxıntıya mübtəla olmaz. Axşam qonaq getməyə dəyər.

**OĞLAQ** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Bütün cinahlardan ovqatınızı yüksəldəcək xəbərlər duyacaqsınız. Amma istənilən prosesdə obyektivliyinizi də qorumalısınız. Səfərə çıxmayın.

**SUTÖKƏN** - Ailə üzvlərinizlə daha mehriban davranın, küsülüləri barışdırın, sədəqə verin. Bir sözlə, elə addımlar atın ki, yalnız savab qazanasınız. Bu günü yalnız bu minvalla başa vurun.

**BALIQLAR** - Səfərə çıxmaq üçün olduqca səmərəli gündür. Əgər imkan varsa, yola çıxın. Alınmırsa, yaxın ünvanlarda yaşayan doğmalarınıza baş çəkin. Bu gün aldığınız iş təkliflərinə tələsik razılıq verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yubka geyinə bilmək üçün imzatoplama kampaniyası keçirdi



İngiltərə qraflığında yaşayan və cinsiyyətini dəyişmək istəyən Kent adlı şagird oxuduğu məktəbin rəhbərliyindən dərsə qızların məktəbli geyimində gəlməklə bağlı icazə alıb. "Daily Mail"in xəbərinə görə, 18 yaşlı gənc öz adını Lili Mediqan olaraq dəyişib və Meydtonstondakı katolik məktəbinə qız paltarında gəlib. Bundan sonra müəllimlər uşağa töhmət veriblər. Amma Kent bu istəyi ilə bağlı internetdə imzatoplama kampaniyası keçirib. Məktəblini minə yaxın insan dəstəkləyib və son nəticədə ona məktəbə qız yubkasında gəlməyə icazə veriblər. Bundan başqa, Medqan qızlar üçün ayaqyoluna və paltar dəyişmə otağına da girə biləcək.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750